QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 094 (6294) 1 iyun 2021-ci il **Qiyməti 40 qəpik** "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.



## Leyla Əliyeva nərə balıqlarının suya buraxılması mərasimində iştirak edib

Mayın 31-də IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın daxili su hövzələrinin bioresurslarının mühafizəsi və bərpasına yönəlmiş genişmiqyaslı "Zəngin...

Bax 6

## Prezidentin köməkçisi: Üzeyir Hacıbəyli adına Şuşa incəsənət məktəbinin inşasına tezliklə başlanılacaq



Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Bahçəli tərəfindən hədiyyə olaraq Şuşa şəhərində Üzeyir Hacıbəyli adına incəsənət məktəbinin inşa edilməsi təşəbbüsü Azərbaycan tərəfdən minnətdarlıqla qarşılanmışdı. Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət...

Bax 6

# "Davam etməkdə olan "peyvənd millətçiliyi" narahatlıq doğurur"

*Azərbaycan Prezidenti İlham Əliyevin Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasında videoformatda çıxışı təqdim olunub*



Bax 4




Bax 8

## Dünya mətbuatı 28 May - Respublika Günündən yazır

"Qala" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun təşəbbüsü ilə Yunanıstanın https://www.karfitsa.gr/ xəbər...

## Milli Məclisin yaz sessiyası başa çatıb

Mayın 31-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında sonuncu plenar iclas keçirilib. İclasda əvvəlcə 6 məsələdən ibarət gündəlik təsdiqlənib. Daha sonra cari məsələlərin müzakirəsində deputatlar Fazil...



Bax 7

## "44 günlük müharibə şanlı tariximizdir"

"Prezident İlham Əliyev 2021-ci ilin 28 may tarixində Ağdam şəhərinə səfər etmişdir. Azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri sürətlə davam edir. Baş plan əsasında işğaldan azad olunmuş...



Bax 11




## Bu gün 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

Bu gün bütün dünya Uşaqların Beynəlxalq Müdafiəsi Gününü qeyd edir. Bunun yarım əsrdən artıq tarixi var. 1950-ci il iyunun 1-də BMT Baş Assambleyası tərəfindən təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı...

Bax 6

## Sahibsiz uşaqların sahibi kimdir? - Dövlət, cəmiyyət, yoxsa...



Azərbaycanda 18 yaşadək uşaqlar ölkə əhalisinin 30 faizini (3 milyon) təşkil edir. Hər il orta hesabla 150 min körpə dünyaya gəlir. Rəsmi rəqəmlərə görə, hazırda respublikada 20 mindən çox uşaq valideyn himayəsindən...

Bax 14

## ""Formula 1" böyük televiziya auditoriyası olan idman növüdür"



Bax 16

## Çətin seçim, növbəti yanlışlıq astanasında



Bax 10

## Meksika, Kolumbiya və Peru parlamentləri AXC-nin yaradılmasının 103-cü ildönümü münasibətilə təbrik bəyanatları qəbul edib



Bax 7

## Mütəxəssisdən xəbərdarlıq: Bu qidalar zəhərlənməyə səbəb ola bilər



Bax 16

# “Ermənistan tərəfi də artıq Zəngəzur dəhlizinin qaçılmaz olması ilə bağlı məsələləri düzgün təhlil edir”

## *Prezident İlham Əliyev Türkiyənin nəqliyyat və infrastruktur nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev bildirib ki, Bakı-Tbilisi-Qars dəmir yolunun birgə inşa edilməsinin xüsusi önəmi var:***



- Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz uğurlu keçəcək. Müzakirə ediləsi məsələlər çoxdur. Əslində, nəqliyyat sahəsi həmişə bizim gündəliyimizdə ön sıralarda idi. İkinci Qarabağ savaşından sonra bunun önəmi daha da artdı. Çünki əvvəlki illərdə birgə həyata keçirdiyimiz layihələrlə yanaşı, yeni layihələr də artıq masa üzərindədir. Bizdə çox güclü işbirliyi tarixi var. Əlbəttə ki, bunların arasında Bakı-Tbilisi-Qars dəmir yolunun birgə inşa edilməsinin xüsusi önəmi var. Bu, bildiyiniz kimi, Şərq-Qərb dəhlizinin önəmli hissəsidir. Son illər bu dəhliz yolu ilə yüklərin həcmi daha da artır.





Ancaq İkinci Qarabağ savaşından sonra biz yeni bir dəhliz üzərində çalışırıq - Zəngəzur dəhlizi. Artıq beynəlxalq müstəvidə də bunun adı məhz Zəngəzur dəhlizi kimi təsbit edildi. Bu da Türkiyə ilə Azərbaycan arasında yeni bir bağlantını təmin edəcək.

Bildiyiniz kimi, müharibədən sonra ilk mərhələdə Ermənistan bu məsələ ilə bağlı öz etirazını bildirmişdir. Ancaq son vaxtlar mənə məlumat verilir ki, Ermənistan tərəfi də artıq bu dəhlizin qaçılmaz olması ilə bağlı məsələləri düzgün təhlil edir. Bildiyiniz kimi, indi üçtərəfli çərçivədə müzakirələr aparılır. Azərbaycan, Rusiya, Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup çərçivəsində bu məsələ müzakirə edilir və yaxşı nəticələr də var.

Biz artıq azad edilmiş torpaqlarda Horadizdən Ermənistan sərhədinə qədər dəmir yolunun çəkilişinə start verdik. Əminəm ki, yaxın iki il, bəlkə iki il yarım ərzində o dəmir yolu tam istismara veriləcəkdir.

Naxçıvan dəmir yolunun böyük hissəsi fəaliyyətdədir və çatışmayan hissə də inşa ediləcək, bütün təlimatlar verilib. Ermənistan ərazisində Zəngəzur dəhlizinin önəmli hissəsi inşa edilməlidir. Beləliklə, yeni bir dəhliz açılacaq və Türkiyə-Azərbaycan arasında bu bağlantı daha da möhkəm olacaqdır.

Bütün digər məsələlər də var. Hansılar ki, siz öz həmkarınızla müzakirə edəcəksiniz. Bütövlükdə deyə bilərəm ki, bu sahə həm Türkiyə, həm Azərbaycan üçün çox böyük önəm daşıyır, xalqlarımızı bir-birinə bağlayan sahədir. Əminəm ki, səfər çərçivəsində gündəlikdə olan bütün məsələlər müzakirə olunacaq və qərarlar qəbul olunacaq. Bir daha xoş gəlmisiniz.

***

Nazir Adil Karaismailoğlu: Təşəkkür edirəm. Sağ olun. Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirəm. Hörmətli Prezidentimizin də Sizə çoxlu salamı var.

Dünən Çamlıca qülləsinin açılışını etdik, orada bir yerdə idik. Bilirsiniz, Çamlıca qülləsində Azərbaycan bayrağını dalğalandırmışdıq. Türkiyədə, bütün dünyada çox böyük rəğbət oyatmışdı, çox gözəl olmuşdu. Canımız, dostumuz Azərbaycan hər zaman bizim qardaşımız, bizim vətənimizdir. Sizin uğurlarınızı həmişə bizim uğurlarımız olaraq gördük. İnşallah, bundan sonra cənab Prezidentimizin və Zati-alinizin liderliyi ilə daim dost olaraq bütün dünyaya səsimizi eşitdirəcəyik.

Qardaşlarımız bizə gəlmişdilər, layihələrimizi müzakirə etmişdik. İnşallah, bu minvalla Sizin də göstərişinizlə bütün layihələrimizi bir-bir yerinə yetirəcəyik. Sabah da tikinti meydançalarına gedib iş adamlarımızın gördükləri işləri yoxlayacaq, onların işləri sürətləndirməsi və düzgün yerinə yetirmələri ilə bağlı tapşırıqlarımızı verəcəyik. İnşallah, bu birliyimiz əbədi davam edəcək.

Biz də dəmir yolu məsələsində çalışırıq, Prezidentimizə də məlumat verdik. Xüsusilə Naxçıvan ilə Qars arasındakı, Qars-Aralık-Dilucu arasındakı layihələrimizi yekunlaşdırmışdıq. İnşallah, onları da bir proqram şəklində hazırlayıb bu dəmir yolunu - Naxçıvan ərazisindən yeni bir dəhlizin inşasını birlikdə həyata keçirəcəyik.

Dostlarımızla toplantılarımızı keçirəcəyik. Qardaşlarımızın işi bizim işimizdir. İnşallah, hamımız birlikdə əl-ələ verərək gözəl işlərə imza atacağıq.

***

Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

***

Sonra nazir Adil Karaismailoğlu Prezident İlham Əliyevə xatirə hədiyyəsi olaraq qılınc təqdim etdi.

Prezident İlham Əliyev: Çox təşəkkür edirəm. Bu, barış xəncəridir.

Nazir Adil Karaismailoğlu: Əlbəttə, barış üçün də lazımdır.

Prezident İlham Əliyev: Bu, lazımdır.

Nazir Adil Karaismailoğlu: Bunu görüncə sülh də olur.

# Bakı Metropoliteninin "8 Noyabr" stansiyası istifadəyə verilib

*Prezident İlham Əliyev stansiyada yaradılan şəraitlə tanış olub*

**Mayın 29-da Bakı Metropoliteninin "8 Noyabr" stansiyası istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev stansiyada yaradılan şəraitlə tanış olub. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına stansiya barədə məlumat verdi.**

Bildirildi ki, ümumi uzunluğu 363,34 metr olan Bakı Metropoliteninin 26-cı, "Bənövşəyi" xəttin 3-cü stansiyası Nəsimi rayonunda yerləşir. Stansiya ərazinin yeraltı nəqliyyat vasitəsilə şəhərin mərkəzi və paytaxtın digər rayonları ilə birləşdirilməsində xüsusi rol oynayır.

Üçsəviyyəli quruluşa malik stansiyanın giriş və müvafiq keçid-nəzarət sahəsi üst mərtəbəyə aiddir. Texniki xarakterli ikinci səviyyədə elektrik təchizatı, havalandırma, işarəvermə, rabitə və digər xidməti sahələrə aid avadanlıqlar yerləşir. Buradan sərnişinlər eskalatorlar və pilləkənlə vestibülə, oradan da platformaya enirlər. Bununla da sərnişinlərin rahatlıq və təhlükəsizliyi maksimum şəkildə təmin edilir. Hərəkətin optimal təşkili ilə vaxta qənaət edilməsi isə vətəndaş məmnunluğuna hesablanan əsas amillərdən biridir.










Metropolitenin bu stansiyasının tikintisi zamanı həssas kateqoriyadan olan vətəndaşlarımızın çətinlik çəkməməsi üçün hər cür şərait yaradılıb. Stansiyanın inşasında yeni növ inşaat üsullarından geniş istifadə edilib. Belə ki, stansiyada fövqəladə hallara qarşı enerji təminatının ən optimal və təhlükəsiz sistemlərlə təmin edilməsi, digər xətlərdə olan sistemlə müqayisədə burada SCADA dispetçer idarəetməsi, məlumatların toplanması və qatarların hərəkət prosesinin vizual izlənməsini təmin edən ən müasir kompleksin tətbiqi xüsusi yeniliklər sırasındadır.

Bakı şəhərinin sürətlə inkişaf etməsi və meqapolisə çevrilməsi reallığında yeni xətlərin yeddi vaqonluq qatarların hərəkəti üçün nəzərdə tutulması isə yeniliklərin davamıdır. Bu özünəməxsusluqlarla metronun "Avtovağzal" stansiyasından başlanan və layihə uzunluğu 18,5 kilometr olaraq Xocasən qəsəbəsindən Qaraçuxur qəsəbəsinədək uzanacaq xəttin daha bir sahəsi - "Memar Əcəmi"-"8 Noyabr" istiqaməti şəhərin yeraltı nəqliyyat şəbəkəsinə qoşulur.

Qeyd edək ki, dövlətimizin başçısının göstərişinə əsasən, Bakı Metropoliteninin yeni stansiyasına Zəfər günü münasibətilə "8 Noyabr" adının verilməsi respublika ərazisində həyata keçirilən bütün layihələrə postmünaqişə reallıqlarına uyğun - yeni, Qələbə və Həmrəylik ruhundan yanaşıldığını göstərir.

İkinci Qarabağ müharibəsindəki Zəfərimizin tərənnümü olan bu stansiya sosial-iqtisadi, infrastruktur əhəmiyyəti ilə yanaşı, həm də mənəvi komponentləri özündə ehtiva edir. Çünki bir zamanlar metronun "20 Yanvar" stansiyasından "Azadlıq" stansiyasına gedən yolda tarixən yaşadığımız iztirabları, məşəqqətli günləri xatırlayırdıqsa, indi "8 Noyabr" stansiyasında bu keşməkeşli yolun xoşbəxt sonluğuna, "Dəmir yumruğun" gətirdiyi Qələbə müjdəsinə şahidlik edəcəyik.






# "Davam etməkdə olan "peyvənd millətçiliyi" narahatlıq doğurur"

*Azərbaycan Prezidenti İlham Əliyevin Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasında videoformatda çıxışı təqdim olunub*

**Ümumdünya Səhiyyə Təşkilatının əsas qərarverici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının "Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması" mövzusuna həsr edilmiş 74-cü sessiyası 2021-ci il mayın 24-dən 31-dək virtual şəkildə keçirilib. AZƏRTAC xəbər verir ki, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusun dəvəti əsasında mayın 31-də sessiyanın bağlanış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim edilib.**



Qeyd edək ki, sessiyanın bağlanış mərasimində xüsusi qonaq qismində Azərbaycan, Qazaxıstan, Əfqanıstan, Argentina, Malayziya, Avstraliya və Butanın dövlət və hökumət başçıları çıxış ediblər.

Ümumdünya Səhiyyə Assambleyasının prezidenti xanım Deçen Vanqmo dedi: Hörmətli nümayəndələr, indi isə Assambleyaya müraciət edəcək yüksək səviyyəli qonağımızı salamlamaqdan şərəf hissi duyuram. Sözü Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Heydər oğlu Əliyevə verməkdən məmnunluq hissi keçirirəm.

Prezident İlham Əliyevin çıxışı

-Hörmətli cənab Baş direktor.

Hörmətli tədbir iştirakçıları.

İlk növbədə, davam etməkdə olan COVID-19 pandemiyası ilə əlaqədar qlobal səhiyyə gündəliyi üçün olduqca çətin bir dönəmdə baş tutan Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasında çıxış etməklə bağlı dəvətə görə minnətdarlığımı bildirmək istərdim.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizənin əlaqələndirilməsi də daxil olmaqla, qlobal səhiyyə sahəsində idarəçiliklə bağlı aparıcı rolunu və səylərini dəstəkləyir.

Pandemiyanın lap ilk günlərindən Azərbaycanda COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlər həyata keçirilmişdir. Qısa zaman ərzində 13 modul tipli və 1 daimi xəstəxana inşa edilmişdir. Ölkədə COVID xəstələrinin müalicəsi üçün müəyyən edilmiş xəstəxana çarpayılarının toplam sayı 10 mindən artıqdır. Bununla yanaşı, COVID-in mənfi təsirinə məruz qalmış ölkə vətəndaşlarını və sahibkarlıq subyektlərini dəstəkləmək məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketi təqdim edilmişdir.

Ölkəmizdə görülmüş müfəssəl tədbirlər nəticəsində karantin rejimi tədricən yumşaldılmışdır.

Biz cari ilin yanvar ayının ortalarından etibarən peyvənd kampaniyasına başlamışıq və artıq 99.94 faizi "Sinovak", qalanı isə "Astra-Zeneca" və "Sputnik" olmaqla, 2 milyon doza peyvənd istifadə edilmişdir. Bu rəqəm əhalimizin 20 faizini təşkil edir. 18 yaşdan yuxarı bütün vətəndaşlar könüllü olaraq peyvənd oluna bilərlər. Peyvənd olunanlara COVID-19 pasportları təqdim edilir. Biz 2021-ci ilin "Səhiyyə işçiləri ili" elan edilməsini alqışlayırıq.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə olduqca səmərəli əməkdaşlıq edir. Ötən il Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırmışdır.

Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirilməsinin əhəmiyyətini təbliğ etmişdir. Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində bir sıra qlobal təşəbbüslərlə çıxış etmişdir. Bu sırada Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında təşkil edilmiş Zirvə toplantısını və 2020-ci ilin dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasını ayrıca qeyd etmək olar.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir. Bununla yanaşı, koronavirusla əlaqədar 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərilmişdir.

Azərbaycan bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləmişdir. Davam edən "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0.3 faizi azgəlirli ölkələrin payına düşmüşdür.

Bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürmüş və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul olunmuşdur.

Bu xüsusda, biz inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırırıq.

# "Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Türkiyə Ali Məhkəməsinin Baş prokurorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Ali Məhkəmənin Baş prokuroru Bəkir Şahin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, prokurorluq orqanlarının həyata keçirdiyi əməkdaşlığın bu münasibətlərin inkişafı baxımından önəmi qeyd olundu. Söhbət zamanı Türkiyənin bu sahədəki təcrübəsinə toxunuldu, Azərbaycanda prokurorluq sahəsində aparılan islahatlardan danışıldı.





# Ağdam müasir şəhərə çevriləcək

*İlham Əliyev: "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır"*

**"Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Ağdama səfəri zamanı Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərkən bildirib.**

Cənab Prezident Ağdamdan olan məcburi köçkünlərlə dəfələrlə görüşləri əsnasında bildirdiyi fikirləri xatırladaraq "Deyirdim ki, torpaqlarımız, Ağdam şəhəri və bütün rayon azad olunandan sonra daha da gözəl şərait yaradılacaq", deyərək təqdim edilən Ağdam şəhərinin Baş Planının sözünün təsdiqi olduğunun diqqətə çatdırıb: "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır".

Vurğulayaq ki, 20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Noyabrın 10-da Prezident İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub: "Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq". 27 ildən sonra Ağdam işğaldan azad olundu. Bu gün qalib dövlətin vətəndaşları kimi öz torpaqlarımıza səfər edirik və tezliklə öz ata-baba yurdlarından didərgin düşmüş insanlar öz yerlərinə qayıdacaq, yeni bir həyat başlanacaqdır.

## "BİZİM BÜTÜN MADDİ SƏRVƏTİMİZ MƏQSƏDYÖNLÜ ŞƏKİLDƏ DAĞIDILDI, TALAN EDİLDİ"

1993-cü ilin iyul ayının 23-də Ağdam erməni işğalçıları tərəfindən işğala məruz qalmışdır. Artıq Ağdamda abadlıq-quruculuq işlərinə başlanılıb. Ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, xalqımıza məxsus din-mədəniyyət abidələrin dağıtmış olsalar da, tarixi həqiqət qələbə çaldı. Azərbaycan Prezident çıxışında "Baxın, görün, Ağdam şəhəri yoxdur, yoxdur. Bir bina da yoxdur. Bir Cümə məscidinin qalıqları qalıb. Onu da mən demişəm, onlar iki məqsəd üçün saxlamışdılar. Bir məqsəd o torpağa bağlı olan bir işarə idi. Yəni, artilleriya atəşinin tənzimlənməsi üçün lazım idi bu məntəqə, bu obyekt. İkinci məqsəd müşahidə məntəqəsi idi. Məscidin minarələrindən onlar müşahidə edirdilər. İndi mən müharibədən sonra Ağdama ikinci dəfə səfər edirəm", deyə bildirib: "Cümə məscidinin qalıqlarından başqa, bir dənə də salamat bina yoxdur. Bunu hansısa yad planetli, necə deyərlər, ünsürlər törətməyiblər. Bunu bizim qonşumuz olan, bizim çörəyimizi



yeyən, bizim torpağımızda özünə yuva salan, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan ermənilər törədiblər. Bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra törədildi. Bu, ikinci müharibə dövründə törədilən dağıntılar deyil. Bizim bütün maddi sərvətimiz məqsədyönlü şəkildə dağıdıldı, talan edildi. Tarixi-dini abidələrimiz söküldü". Erməni işğalından əvvəl Ağdamda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir. Arxeoloji tədqiqatlar zamanı aydın olub ki, ilk qədim insanlar rayon ərazisində 6-8 min il bundan əvvəl, yəni, eneolit dövründə yaşamışlar. Uzun bir tarixə malik olan Ağdam Dağlıq Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olmuşdur. Artıq bunlar tarixi keçmişimizdir. Bu gün görüləcək işlər, aparılacaq abadlıq-qurculuq işləri bizi ruhlandırır.

Belə ki, azad edilmiş torpaqlarda birinci Baş Plan artıq təsdiqlənib. "İndi Şuşa şəhərinin Baş Planı hazırlanır, artıq bir müddətdən sonra təsdiqlənəcək. Füzuli şəhərinin, Cəbrayıl şəhərinin, digər şəhərlərin Baş Planları üzrə iş gedir. Amma birinci Baş Plan, bax, burada təsdiqlənəcəkdir", deyən dövlət başçısı bilirib ki, artıq bir neçə tədbir keçirildi. Belə ki, Ağdam şəhəri üçün çox önəmli olan 1 saylı məktəbin təməli qoyuldu. Dövlətimizin başçısı Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının, 140 illik tarixi olan 1 saylı məktəbin yeni inzibati binasının, Sənaye Parkının, Bərdə-Ağdam avtomobil yolunun təməli qoyuldu. Azərbaycan Prezidenti Ağdam şəhər meşəparkının salınmasında iştirak edib. Dövlət başçısı Pənahəli Xan sarayının yerləşdiyi İmarət kompleksinin, Qiyaslı məscidinin, Şahbulaq qalasının bərpası, Zəfər və İşğal muzeylərinin tikintisi ilə bağlı tövsiyə və göstərişlərini verib. Bütün bunlar, heç bir çətinliyə baxmadan, Qarabağda bərpa-quruculuq işlərinin başlanılması ilə bağlı Prezident iradəsinin və mövqe qətiyyətinin göstəricisidir. "Ağdamda İşğal muzeyi və Zəfər muzeyi konsepsiyası mənə təqdim edildi" deyən Prezident bunun üçün yer seçildiyini və həm Zəfər, həm də İşğal muzeylərinin çox möhtəşəm olacağını vurğulayıb: "Digər obyektlər, digər tədbirlər, böyük meşə sahəsinin təməli qoyuldu. Şəhərin içində böyük bir meşə zolağı olacaq - 125 hektarlıq. Süni göl yaradılacaq, kanallar, körpülər. Şəhərin müasir standartlara, müasir tələblərə uyğun inkişaf planı artıq tam işlənib hazırlanıb. Bütün Qarabağ zonası "yaşıl enerji" zonası olacaq. Bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq".



## ŞAHBULAQ QALASI YENİDƏN QURULACAQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdama səfəri çərçivəsində Şahbulaq qalasında da olub. Dövlət başçısına abidənin yenidənqurma planı təqdim edilib. Qeyd edək ki, XVIII əsrə aid bu qala Qarabağ ərazisində ki ən məşhur abidələrdən biridir. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib. Bayat döyüşündən sonra Pənahəli xan fikirləşdi ki, xanlığa daha etibarlı qala lazımdır. Çünki Bayat qalasının strateji mövqeyi zəif, iqlimi isti olduğundan, orada uzun müddət böyük hərbi qüvvə saxlamaq mümkün deyildi. Buna görə də Pənahəli xan Ağdamın 5-6 kilometrliyində yerləşən Şahbulaq adlanan yerdə inşaat işlərinə başlanıldı və kiçik qala-şəhər halına salındı. Elmi ədəbiyyatda "Şahbulaq qəsri" adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksinin iç qalası olub. Kompleks yaşayış evlərindən, bazar, hamam və məsciddən ibarət idi. Şahbulaq qalasının da coğrafiya mövqeyi də əlçatmaz və ağaclarla bağlı olan bir ərazi idi. Qalanın tərəfləri sıldırımlı qayalarla hərtərəfli örtülmüşdü. Qala təhlükəsiz yer idi. Paytaxtın Şahbulaq qalasından Şuşa qalasına köçürülməsinin səbəbi, Şuşa qalasının əbədi keçilməz, əlçatmaz yer idi. Şuşa qalası hətta ən güclü düşmənin belə onu mühasirəyə almasına imkan vermirdi. Pənahəli xan çox təhlükəsiz bir ərazi istəyirdi. Buna görə də o paytaxtı Şahbulaqdan Şuşaya köçürmüşdü. Bu memarlıq abidəsi I Qarabağ müharibəsinə qədər yaxşı mühafizə edilib saxlanmışdı. SSRİ dövründə Ağdam rayonuna gələn bütün əcnəbi qonaqlar bu abidəni ziyarət edirdilər. Abidə kompleksi həmişə diqqət mərkəzində olduğundan bir növ Ağdam rayonunun simvoluna çevrilmişdi.

Ağdam rayonu 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. Şahbulaq qalası da rayonun daxilində idi. Erməni işğalçıları abidənin daxilində olan məscid, hamam və bulaqları dağıdıblar. Burada aparılan qazıntı işlərinin maliyyələşdirilməsi Ermənistan hökuməti tərəfindən, İrəvandakı ictimai təşkilatların birliyi statusunu daşıyan "Erkir" təşkilatının vasitəsi ilə 2005-ci ildən maliyyələşdirilmişdir.Ermənilər Ağdamı işğal etdikdən sonra bir sıra abidələrimiz kimi Şahbulaq qalasını da erməniləşdirməyə çalışıb, yaxınlıqdakı məscidi isə kilsə kimi təqdim ediblər. Bu gün artıq işğaldan azad olunan ərazilərimiz kimi, Ağdam da yeni bir inkişaf dövrünə qədəm qoyub. Aparılan abadlıq-quruculuq işləri tezliklə Ağdamı müasir bir şəhərə çevirəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Leyla Əliyeva nərə balıqlarının suya buraxılması mərasimində iştirak edib



Mayın 31-də IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın daxili su hövzələrinin bioresurslarının mühafizəsi və bərpasına yönəlmiş genişmiqyaslı "Zəngin hövzələr" layihəsi çərçivəsində Xıllı-Balıq MMC, Az-Varvara MMC, "Azerbaijan Fish Farm" MMC balıqartırma zavodlarında yetişdirilmiş 550000 ədəd körpə nərə balığının suya buraxılması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib. Məlum olduğu kimi, son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri, çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb.



Problemin hərtərəfli həlli məqsədilə IDEA İctimai Birliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Böyük Britaniyanın "Mavi Dəniz Fondu" (BLUE) ilə birlikdə müxtəlif mühafizə, bərpa və ictimai maarifləndirmə tədbirləri həyata keçirilir.

"Zəngin hövzələr" layihəsi balıq növlərinin təbii populyasiyasının artırılması, balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ balıq körpələrinin təbii mühitə buraxılması, eləcə də daxili su hövzələrində çirkləndirilmənin azaldılması, qanuni və sivil qaydalarla balıq ovunun təşviqi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Qeyd edək ki, ötən ilin may ayında start verilmiş layihə çərçivəsində indiyədək ümumilikdə 3 milyondan çox müxtəlifnövlü balıq körpələri su hövzələrinə buraxılıb. "Zəngin hövzələr" layihəsinin icrası müddəti balıqların kürütökmə dövrü ilə əlaqədar 1 may tarixindən elan olunan 4 aylıq moratoriuma təsadüf edir.

# Çiril Qaburic: "Prezident İlham Əliyevin aktual məsələlərə dair mövqeyini bilmək olduqca maraqlı idi"



Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin keçirdiyi "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı müzakirələrdə səslənən sualların mövzuları fərqli sahələri əhatə edirdi və Prezident İlham Əliyevin aktual məsələlərə dair mövqeyini bilmək olduqca maraqlı idi. Bu barədə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü, Moldovanın sabiq Baş naziri Çiril Qaburic mayın 20-də keçirilən müzakirələrin onda doğurduğu təəssüratlardan danışarkən deyib. Moldovanın sabiq Baş nazirinin fikirləri Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə AZƏRTAC-ın birgə layihəsi çərçivəsində təqdim olunur.

"Əlbəttə ki, bu, Prezident İlham Əliyevin bir dövlət rəhbəri və siyasətçi kimi təkcə siyasət və cəmiyyətlə bağlı deyil, həm də qabaqcıl texnologiyalar barədə daha zəngin və məlumatlı olması ilə əlaqədardır. Bütün suallara aydın və birmənalı şəkildə cavab verməklə Prezident müxtəlif dövlətlərin nümayəndələrinin iştirak etdiyi geniş auditoriya ilə asanlıqla söhbət aparmaq bacarığını nümayiş etdirdi. Prezident İlham Əliyev sanki saatlarla dayanmadan belə müzakirə apara bilərdi", - deyə Çiril Qaburic bildirib.

Onun fikrincə, müzakirələr yüksək səviyyədə təşkil olunmuşdu. Tədbirdə iştirakçıların sayının çox olması, eləcə də maraqlı və çoxsaylı suallar da bunu təsdiqləyir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi kimi təşkilatlara böyük ehtiyac var. Ortaq mövzularla bağlı fərqli fikirlərin bir arada səslənməsi çox vacibdir. Bu fikirləri bölüşmək və onların hamı tərəfindən eşidilməsini təmin etmək də xüsusi önəm daşıyır.

"Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin digər beynəlxalq təşkilatların üzvü və ya iştirakçısı olmasını, bu cür müzakirələrin ortaq platformaya çevrilməsini təklif edərdim. Bu Mərkəzin məhdud sayda insanlarla gördüyü işlər sadəcə möhtəşəmdir", - deyə Moldovanın sabiq Baş naziri bildirib.

# Ermənistan Silahlı Qüvvələrinə məxsus PUA ələ keçirilib



Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində Ermənistan Silahlı Qüvvələrinə məxsus "Qrifon-12" tipli pilotsuz uçuş aparatı (PUA) bölmələrimiz tərəfindən aşkar olunaraq xüsusi texniki vasitələrlə yerə endirilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.



# Prezidentin köməkçisi: Üzeyir Hacıbəyli adına Şuşa incəsənət məktəbinin inşasına tezliklə başlanılacaq

Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Bahçeli tərəfindən hədiyyə olaraq Şuşa şəhərində Üzeyir Hacıbəyli adına incəsənət məktəbinin inşa edilməsi təşəbbüsü Azərbaycan tərəfdən minnətdarlıqla qarşılanmışdı. Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev AZƏRTAC-a açıqlamasında deyib.

Hikmət Hacıyev qeyd edib ki, Prezident İlham Əliyev mayın 27-də Türkiyənin milli təhsil nazirini qəbul edən zaman Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Şuşaya gözlənilən səfəri çərçivəsində Türkiyə tərəfindən təklif edilmiş bir hədiyyə kimi, məktəbin təməlqoyma mərasiminin proqramda əksini tapdığını bildirmişdi.

"Mütəxəssislər səviyyəsində incəsənət məktəbi binasının memarlıq layihəsinin Şuşa şəhərinin özünəməxsus arxitektura üslubuna uyğunlaşdırılması məqsədilə işçi müzakirələrin aparılması təklif olunub. Bu xoşniyyətli təşəbbüsün məqbul görülməməsi əsla müzakirə mövzusu deyildir. Məsələnin mahiyyəti barəsində tam dolğun məruzə olunmamasının anlaşılmazlığa səbəb olduğu istisna edilməyə bilər. Əminik ki, qarşılıqlı anlaşma şəraitində texniki memarlıq xarakterli məsələlər işçi səviyyədə həll olunaraq, Üzeyir Hacıbəyli adına Şuşa incəsənət məktəbinin tezliklə inşasına başlanılacaq", - deyə Prezidentin köməkçisi qeyd edib.

# Bu gün 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür




Bu gün bütün dünya Uşaqların Beynəlxalq Müdafiəsi Gününü qeyd edir. Bunun yarım əsrdən artıq tarixi var. 1950-ci il iyunun 1-də BMT Baş Assambleyası tərəfindən təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib. Elə həmin tədbirdə də, 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərara alınıb. Bundan sonra iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb. BMT-də Uşaq Hüquqlarına dair Konvensiya qəbul edilib və Uşaq Hüquqları Konvensiyası - BMT tərəfindən qəbul edilmiş bir saziş olaraq, dünyanın hər bir yerində yaşayan uşaqların Konvensiya ilə müəyyən edilmiş hüquqlarını təmin edir.

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd edilir. Bütün demokratik dövlətlərdə olduğu kimi, Azərbaycanda da uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir. Ölkəmizdə müasir uşaqların problemlərinin həlli, onların hüquqlarının qorunması kimi məsələlərin zəruriliyini nəzərə alaraq, əlverişli mənəvi və sosial mühitin yaranması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Uşaqların qayğısına qalaraq intellekti yüksək olan, savadlı nəslin yetişməsinə tələb olunan şəraitin yaradılmasına önəm verilir.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə, Azərbaycan müstəqillik dövründə, uşaq hüquqlarının qorunması və cəmiyyətimizin bu sahədə maarifləndirilməsi sahəsində çoxsaylı layihə və proqramlar həyata keçirib. 2002-ci ildə Azərbaycan qeyd olunan Konvensiyanın iki əlavə protokoluna qoşulub. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il avqustun 24-də "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun təsdiqi ilə bağlı imzaladığı Fərmanı uşaqların hüquq bərabərliyi, vicdan, söz və məlumat azadlığı, yaşamaq və inkişaf etmək, təhsil almaq, şərəf və ləyaqətinin müdafiəsi hüquqlarının təmin olunmasında böyük əhəmiyyətə malikdir. Bu sənəd cəmiyyətdə uşaqların müdafiəsinə və onların inkişafına xüsusi təkan oldu.

Ulu Öndər Heydər Əliyevin ideyaları əsas götürülərək, müasir dövrdə uşaq və gənclərin vətəndaşlıq, vətənpərvərlik və mənəvi-əxlaqi tərbiyə sisteminin hüquqi əsası formalaşdırılmış və normativ mənbə kimi bir sıra proqramlar qəbul edilmişdir. Uşaq siyasətinə xüsusi diqqət yetirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu sahədə bir sıra uğurlu dövlət proqramları və layihələr reallaşır. Uşaq siyasəti ilə bağlı Prezident İlham Əliyevin Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilib. Qaydalar uşaq sahəsində nəzarətin gücləndirilməsi, müvafiq dövlət orqanlarının uşaq sahəsində fəaliyyətinin əlaqələndirilməsi baxımından, xüsusi əhəmiyyətə malikdir. Dövlət başçısının Sərəncamına əsasən, "Azərbaycan Respublikasında dövlət-uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)" ölkəmizdə uşaqlara dövlət səviyyəsində göstərilən diqqətin daha bir nümunəsi idi.

Bu gün Ulu Öndər Heydər Əliyevin ideyalarını əməli fəaliyyəti ilə yaşadan Heydər Əliyev Fondu tərəfindən də genişmiqyaslı tədbirlər həyata keçirilir. Belə ki, fond xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olan uşaqlara diqqət və qayğı ilə yanaşır. Ölkəmizdə uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində silsilə tədbirlərin keçirilməsinə təkan verir. Fondun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat namine", "Kor və zəif görən insanların İKT-yə çıxışının təmin edilməsi" layihələri, məhz uşaqların fiziki və mənəvi sağlamlığı, yetkin bir şəkildə formalaşması istiqamətində həyata keçirilir. Fond tərəfindən "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində aparılan əsaslı təmir və yenidənqurma işləri cəmiyyətdə əks-səda yaradıb.

Bu gün uşaq və gənclərin mənəvi və əxlaqi, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi üçün bütün tədbirlər həyata keçirilir. Bundan başqa, onlarda milli mədəniyyətimizə maraq, ümumbəşəri və milli dəyərlərin mənimsənilməsinə olan tələbat, bədii zövq və incəsənətə meyil, cəmiyyət həyatında iştirakın formalaşmasına hərtərəfli yardım göstərilir. Təhsil müəssisələrində uşaq və gənclərin istirahəti və asudə vaxtlarının təşkilinə diqqət artırılmışdır. Peşə seçimi, iqtisadi və əmək tərbiyəsi onlarda bir sıra amillərin formalaşmasına səbəb olmuşdur: sosial və iqtisadi mədəniyyət, əməyin şəxsi və ictimai əhəmiyyətinin dərk edilməsi, uşağın bu prosesdə iştirakı və şəraitə uyğunlaşmaq bacarığı, yaradıcı praktik düşüncə, təhsil və peşəkarlıq dəyərlərinə maraq və s. problemlərin uğurlu həlli bütün cəmiyyətin həyat fəaliyyəti və onların sonrakı mütərəqqi inkişafından asılıdır. Bütün bunlar, onu deməyə əsas verir ki, Azərbaycan gələcəyin qurucusu olacaq, uşaqların sabahı üçün böyük tədbirlər görür və dünyanın işıqlı sabahını təmin edir.

**ZÜMRÜD BAYRAMOVA**

# Milli Məclisin yaz sessiyası başa çatıb

**Mayın 31-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında sonuncu plenar iclas keçirilib. İclasda əvvəlcə 6 məsələdən ibarət gündəlik təsdiqlənib.**

Daha sonra cari məsələlərin müzakirəsində deputatlar Fazil Mustafa, Qənirə Paşayeva, Hikmət Məmmədov, Azay Quliyev, Bəxtiyar Əliyev, Elman Nəsirov, Elşən Musayev, Elşad Mirbəşiroğlu, Bəhruz Məhərrəmov, Cavid Osmanov, Zahid Oruc bir sıra məsələləri diqqətə çatdırıblar.

Plenar iclasda əvvəlcə "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun layihəsi (üçüncü oxunuş) müzakirəyə çıxarılıb. Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın məlumatı dinlənildikdən sonra deputatlar Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Aydın Mirzəzadə rəy və təkliflərini bildiriblər. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov layihədə deputatları maraqlandıran bəzi məqamlara aydınlıq gətirib. Komitə sədri Qənirə Paşayeva sualları cavablandırıb.

Sonra məsələ səsə qoyulub və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.



İclasda "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun şərhi dinlənildikdən sonra bu məsələ də səsə qoyulub və 5 fəsil 20 maddədən ibarət qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

"Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov təqdim edib. Müzakirədə Qüdrət Həsənquliyev, Sabir Rüstəmxanlı və Siyavuş Novruzov çıxış ediblər. Layihə səsə qoyulub və qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. Daha sonra gündəlikdəki növbəti 3 qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb.

"Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (ikinci oxunuş) barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini parlamentə təqdim edən komitə sədri Tahir Mirkişili əvvəlcə 2020-ci ilin Azərbaycanın Ermənistan işğalçıları üzərində qazandığı möhtəşəm hərbi, siyasi, iqtisadi Qələbə ili olduğuna diqqət yönəldib, COVID-19 pandemiyasının dünya miqyasında yaratdığı problemlərə toxunub. Bildirib ki, müharibə xərcləri, şəhid ailələrinə, əsgər və zabitlərə qayğının artırılması, sosial dəstək proqramlarının icrası, səhiyyə sisteminin gücləndirilməsi, işğaldan azad edilən ərazilərin bərpası, pandemiyadan əziyyət çəkən sahibkarların dəstəklənməsi 2020-ci il dövlət büdcəsinin icrası qarşısında dayanan mühüm hədəflərdən olub.

Komitə sədri nəzərə çatdırıb ki, 2020-ci ildə dövlət büdcəsinin gəlirləri 24 milyard 124 milyon manat proqnoza qarşı 24 milyard 681,7 milyon manat, yəni, proqnozla müqayisədə 2,3 faiz çox icra olunub. Dövlət büdcəsinin xərcləri isə 27 milyard 492,2 milyon manat proqnoza qarşı 26 milyard 416,3 milyon manat icra edilib ki, bu da proqnozla müqayisədə 3,9 faiz az deməkdir. Bildirib ki, dövlət büdcəsində yaranan kəsir proqnoza nisbətdə 2 dəfə az olub. Ötən il xarici və daxili dövlət borclanmaları üzrə icra vəziyyəti müəyyənləşdirilmiş limiti keçməyib.

Tahir Mirkişili vurğulayıb ki, 2020-ci il dövlət büdcəsinin icrası Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi inkişaf və dəstək kursunun ardıcıl surətdə davam etdirilməsi, əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizik məsələlərinin həlli və iqtisadiyyatın qorunaraq stimullaşdırılması istiqamətində müsbət rolunu oynayıb.

Qanun layihəsinin müzakirəsində deputatlar Fazil Mustafa, Əli Məsimli, Qənirə Paşayeva, Fəzail Ağamalı, Qüdrət Həsənquliyev, Etibar Əliyev bir sıra təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar.

"Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda "Kredit ittifaqları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov təqdim edib. Deputatlar "Kredit ittifaqları haqqında" Qanuna təklif olunan dəyişikliyi ikinci oxunuşda məqbul sayıblar.

Gündəlikdəki sonuncu məsələ barədə Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Bildirib ki, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) gündəlikdəki 5-ci məsələ ilə üzvi surətdə bağlıdır. Kredit reyestrləri və kredit ittifaqları haqqında məlumatların verilməməsinə görə İnzibati Xətalar Məcəlləsində cərimə sanksiyaları nəzərdə tutulur.

Məlumat dinlənildikdən sonra Milli Məclis bu Qanunu ikinci oxunuşda dəstəkləyib.

İclasa yekun vuran Milli Məclisin sədri Sahibə Qafarova bu tədbirin yaz sessiyasının sonuncu iclası olduğunu bildirib. Konstitusiyanın 88-ci maddəsinin II hissəsinə uyğun olaraq, 81 deputat növbədənkənar sessiyanın çağırılması üçün mənə müraciət edib. Mən bu barədə sərəncam imzalamışam və iyun ayında bizim növbədənkənar sessiyamız olacaq.

Sonra deputatlara yaz sessiyasının yekunları barədə məlumat verən parlamentin sədri qeyd edib ki, 2021-ci ilin yaz sessiyasında Milli Məclisin 14 iclası keçirilib, 88 qanun və qərar, o cümlədən 1 Konstitusiya qanunu qəbul edilib. Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətini parlament səviyyəsində dəstəkləmək üçün bütün tədbirlər həyata keçirilib.

Yaz sessiyasının iclaslarında Milli Məclisdə Nazirlər Kabinetinin və Hesablama Palatasının illik fəaliyyətləri barədə hesabatların, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun məlumatının, İnsan hüquqları üzrə müvəkkilin və Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzələrinin dinlənildiyini qeyd edən Azərbaycan parlamentinin sədri Sahibə Qafarova vurğulayıb ki, bütün dünyanın COVID-19-a qarşı mübarizə şəraitində yaşadığı hazırkı dövrdə pandemiyanın törətdiyi problemlərə baxmayaraq, Milli Məclisin normal iş ahəngi qorunub saxlanılıb, komitə və komissiyaların əksər iclasları videokonfrans formatında keçirilib, beynəlxalq əlaqələrin inkişafı sahəsində də işlər uğurla davam etdirilib.

Çıxışını yekunlaşdıran Sahibə Qafarova Milli Məclisin 2021-ci il yaz sessiyasını bağlı elan edib. Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə parlamentin yaz sessiyası başa çatıb.

***Rəfiqə Kamalqızı***

# Meksika, Kolumbiya və Peru parlamentləri AXC-nin yaradılmasının 103-cü ildönümü münasibətilə təbrik bəyanatları qəbul edib

**Meksika, Kolumbiya və Peru parlamentləri Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasının 103-cü ildönümü münasibətilə təbrik bəyanatları qəbul edib.**

Azərbaycan Respublikasının Meksikadakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, Meksika Deputatlar Palatasında fəaliyyət göstərən Meksika-Azərbaycan parlamentlərarası dostluq qrupunun adından verilmiş bəyanatda 28 May - Respublika Günü ilə bağlı ölkəmizə təbrik ifadə olunur, Azərbaycan xalqına sülh və tərəqqi arzu edilir. Sənəddə, həmçinin iki ölkə arasında əlaqələrin qarşıdakı illərdə daha da dərinləşəcəyinə ümid dilə gətirilir, habelə Azərbaycanın pandemiyadan daha da güclənmiş şəkildə çıxacağına inam ifadə edilir.

Peru Konqresindəki Peru-Azərbaycan dostluq qrupunun sədri Gilyermo Aliaqa Paxaresin təşəbbüsü əsasında həmin qanunverici orqan tərəfindən qəbul edilmiş təbrik bəyanatında bütün dünya azərbaycanlılarının öz əcdadlarının Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərqdə demokratiyanın inkişafına verdiyi tarixi töhfələri yad etmək üçün hər ilin 28 may tarixini Azərbaycanın Respublika Günü kimi qeyd etdiyi bildirilir.

Sənəddə 103 il öncə demokratik prinsip və dəyərlər üzərində qurulmuş AXC-nin müsəlman Şərqində ilk demokratik, dünyəvi və parlamentli respublika olduğu və digər demokratik dünya dövlətləri tərəfindən tanındığı, bütün vətəndaşlarını irq, millət, din və cins ayrı-seçkiliyi olmadan eyni hüquqlarla təmin etdiyi, əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan ölkələr arasında qadınlara seçki hüququ verən ilk ölkə olduğu bildirilir və ilk müstəqilliyinin 103-cü ildönümünü qeyd etməsi münasibətilə ölkəmizə təbrik ifadə edilir.



CONGRESO DE LA REPÚBLICA DE COLOMBIA
SENADO DE LA REPÚBLICA

COMISION SEGUNDA CONSTITUCIONAL PERMANENTE

CONSTANCIA

Los Senadores integrantes de la Comisión de Relaciones Exteriores del Senado Colombiano y los Honorables Senadores miembros del Grupo Interparlamentario de Amistad Colombia – Azerbaiyán, transmitimos nuestras cordiales felicitaciones al hermano pueblo azerbaiyano en ocasión de su Día Nacional – el establecimiento de la primera República Democrática de Azerbaiyán (RDA).

El 28 de mayo de 1918 el pueblo azerbaiyano pasó a la historia como el fundador de la primera república democrática en el Oriente musulmán. Esa república logró realizar pasos muy progresivos para el desarrollo del estado y bienestar del pueblo. Los principales valores democráticos como el poder del pueblo, derechos humanos, la igualdad de naciones, igualdad racial y religiosa, la libertad de palabra – normas democráticas que incluso hoy son consideradas como fundamentales – fueron implementadas durante la corta vida de la RDA. La RDA marcó también un mito en la historia como el primer país en el mundo islámico en conceder a las mujeres el derecho de sufragio, incluso mucho antes que la mayoría de los países occidentales.

Pese a su breve vida, la RDA logró grabar la idea de independencia en la memoria del pueblo azerbaiyano, quien preservó muchos de sus atributos nacionales. El actual Azerbaiyán recuperó su independencia en 1991 y como el heredero político y espiritual de la primera República, demostró el compromiso con sus antiguas tradiciones estatales.

Hoy los azerbaiyanos de todo el mundo celebran con mucho orgullo el 103° aniversario de su primera república, recordando las contribuciones de sus ancestros en la difusión de la democracia en Cáucaso.

En ese día tan notable acompañamos con profunda alegría al amigo país Azerbaiyán, convencidos de que bajo el liderazgo del presidente Ilham Aliyev, Azerbaiyán seguirá avanzando por el camino de la prosperidad, mientras Colombia



CÁMARA DE DIPUTADOS
LXIV LEGISLATURA

GRUPO DE AMISTAD MÉXICO - AZERBAIYÁN
**Agustín García Rubio**
PRESIDENTE

**Palacio Legislativo de San Lázaro a 28 de mayo de 2021**
**HCD/LXIV/GMA/600/21**
**Asunto: Felicitación**

**Excelentísimo Mammad Talibov**
**Embajador de Azerbaiyán en México**
**PRESENTE**

Hace 103 años el pueblo de Azerbaiyán pasó a la historia como el fundador del primer estado laico y la primera república democrática en el oriente musulmán, es un honor y un gran placer transmitir para el grupo de amistad entre México y Azerbaiyán, de la Honorable Cámara de Diputados, mis más sinceras felicitaciones por celebrar el día de la República de Azerbaiyán y los mejores deseos para que continúe la paz, y la prosperidad para su país, esperando que haga extensiva estás palabras al excelentísimo presidente Ilham Heydar Oglu Aliyev.

Espero que los lazos amistosos que nuestros países han cimentado hasta ahora, se fortalezcan en los próximos años y que los intercambios y la amistad entre nuestros pueblos también se profundicen.

Tras un año marcado por la pandemia de Sars-Cov2, espero sinceramente que Azerbaiyán salga de este reto como una nación más próspera y fuerte.

ATENTAMENTE

**Dip. Agustín García Rubio**

Av. Congreso de la Unión 66, Col. El Parque; Alcaldía Venustiano Carranza; C.P. 15960 Ciudad de México; edificio B, nivel 1, oficina 5, tel. 55-5036-0000 ext. 61128
**agustin.garcia@diputados.gob.mx**

Kolumbiya Senatının Xarici əlaqələr daimi komissiyası və bu palatada fəaliyyət göstərən Kolumbiya-Azərbaycan parlamentlərarası dostluq qrupu tərəfindən qəbul edilmiş, Senatın birinci vitse-spikeri, adıçəkilən daimi komissiyanın sədri və çoxsaylı senatorlar tərəfindən imzalanmış sənəddə AXC-nin qısa mövcudluq dövrü ərzində dövlət quruculuğu və xalqın rifahının yüksəldilməsi sahəsində atdığı addımlar haqda məlumat verilir, ilk respublikanın siyasi və mənəvi varisi olan müasir Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi altında tərəqqi yolunda irəliləməkdə davam edəcəyinə əminlik ifadə olunur və "qardaş Azərbaycan xalqına" Respublika Günü münasibətilə səmimi təbriklər çatdırılır.

Eyni zamanda, sənəddə Azərbaycanın ötən il ərazilərini azad edərək öz ərazi bütövlüyünü bərpa etməsi, BMT TŞ-nin aidiyyəti qətnamələrinin icrasına müvəffəq olması, bölgədə sülhün bərpa olunması və azərbaycanlı məcburi köçkünlərin 30 ildən sonra öz evlərinə qayıtmalarına imkan yaranması alqışlanır, regional əməkdaşlığın canlanması və bölgədə davamlı barışığın təmin edilməsinə yönəlik səylər təqdir olunur.

# Dünya mətbuatı 28 May - Respublika Günündən yazır

## Yunanıstan

"Qala" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun təşəbbüsü ilə Yunanıstanın https://www.karfitsa.gr/ xəbər saytında Respublika Günü ilə bağlı məqalə yayımlanıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, məqalədə mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 103 ili tamam olduğu qeyd edilir. Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olub. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirib.

Müəllif bildirir ki, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisidir. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Əlimərdan bəy Topçubaşovun, Məhəmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinski və başqalarının böyük xidmətləri olub. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunub.




## Çin mediası

Pekin Xarici Dillər Universitetinin Asiya-Afrika fakültəsinin Azərbaycan dili kafedrasının müdiri Aqşin Əliyevin təşəbbüsü ilə Çinin https://mp.weixin.qq.com saytında 28 May - Respublika Gününə həsr olunmuş "Əzab və Şöhrət: Azərbaycan Xalq Cümhuriyyətinin tarixi" sərlövhəli məqalə yayımlanıb.




Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Pekin Universitetinin nəzdindəki Asiya Kollecinin Azərbaycan dili fakültəsinin tələbəsi Lu Sinin qələmə aldığı məqalədə ölkəmizin dövlətçilik tarixində baş vermiş mühüm hadisəni şərtləndirən ictimai-siyasi proseslər, cümhuriyyət qurucuları, AXC-nin yaranması, fəaliyyəti, həyata keçirdiyi siyasi-iqtisadi və humanitar islahatlar, əldə etdiyi nailiyyətlər və süqutu barədə müfəssəl məlumat verilib.

## Küveytin "Ən-Nahar" qəzeti

Küveytin "Ən-Nahar" qəzetində "Azərbaycanda Respublika Gününün 103-cü ildönümü qeyd edilir... turizm və gözəllik ölkəsi" sərlövhəli məqalə dərc olunub. Azərbaycanın Küveytdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məqalədə müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranması və fəaliyyəti haqqında məlumat verilib. Yazıda qeyd edilib ki, 1918-ci il mayın 28-də Tbilisi şəhərində elan edilmiş AXC Birinci Dünya müharibəsində qalib olan müttəfiq dövlətlərin Ali Şurası tərəfindən de-fakto tanınıb. Bu respublika çoxpartiyalı parlamentə malik idi və ölkənin siyasi, iqtisadi sahələrində bir sıra demokratik islahatlar həyata keçirib, qadınlara kişilərlə bərabər seçki hüququ verib. Daha sonra qeyd edilir ki, bu gün müstəqil Azərbaycan Respublikası inkişaf etmiş sənaye və kənd təsərrüfatına, geniş nəqliyyat infrastrukturuna, elmi potensiala, qədim və zəngin mədəniyyətə, neft-qaz, neft kimyası, maşınqayırma, metallurgiya, tikinti materialları və yüngül sənaye kimi inkişaf etmiş sahələrə malikdir. Kənd təsərrüfatı əsasən ipəkçilik, üzümçülük, heyvandarlıq, hər növ tərəvəz və dənli bitkilərin becərilməsi sahələri üzrə ixtisaslaşıb.




Azərbaycanın turizm sektorundan bəhs edilən məqalədə bildirilir ki, son illərdə ölkədə müasir turizm infrastrukturu qurulub. Azərbaycan gözəl təbiəti, əlverişli iqlimi, zəngin və ləziz mətbəxi ilə bu sahənin inkişafı üçün böyük imkanlara malikdir. Yazıda diqqətə çatdırılır: "Bu ölkə iqlim müxtəlifliyi, gözəl mənzərələri, gölləri və çayları ilə məşhurdur ki, bu da onu turizm ölkəsinə çevirir. Bakı müasir şəhər olsa da, respublikanın tarixini əks edən Şərq və Qərb mədəniyyətlərinin sintezi paytaxta xüsusi gözəllik verir. Bu gün turizm Azərbaycan iqtisadiyyatının inkişaf etməkdə olan sahəsidir. Ölkə ötən əsrin 80-ci illərində əhəmiyyətli bir turizm məkanına çevrilmişdi, lakin Vətən müharibəsi Azərbaycanda turizmin zəifləməsinə səbəb oldu. Bununla belə, son illərdə Azərbaycana gələn turist sayı artmaqda davam edir.

Azərbaycanın mühüm turizm məkanlarına qədim Bakının Qız qalasını, Şirvanşahlar sarayını və qayaüstü tarixi yazıların olduğu Qobustan Milli Parkını misal göstərə bilərik.

Bakı Azərbaycanın paytaxtı olmaqla yanaşı, Xəzər dənizinin sahilində yerləşən bir şəhər kimi həm də turizm mərkəzidir. Burada bir çox məşhur tarixi abidələr, həmçinin göydələnlər və müasir tikililər vardır. Turist vizaları Azərbaycanın səfirliklərində və ya dünyanın istənilən yerində elektron vizalar vasitəsilə əldə edilə bilər".

Məqalədə qeyd olunur ki, Bakı qədim dövrlərə uzanan bir çox sivilizasiyanı özündə cəmləşdirir, iqtisadi-hərbi baxımdan ən güclü İslam sivilizasiyası şəhərin görkəmində silinməz izlər buraxmışdır. Azərbaycan paytaxtında çoxlu sayda turizm məkanı var ki, bunlardan da ən əsası köhnə şəhər və ya İçərişəhərdir. UNESCO-nun Dünya İrsi Siyahısına daxil olan bu məkanda qədim tekstil və erkən dövrlərdən bəri istifadə olunan antik əşyaların satışı yerləri və milli restoranlar var. Bakıda Qız qalası və Şirvanşahlar sarayı da daxil olmaqla 50-dən çox tarixi-memarlıq abidəsi mövcuddur.

Yazıda Azərbaycanın Qəbələ, Quba, Şamaxı, Gəncə, Xınalıq, Lahıc, Şəki, Naxçıvan və digər yaşayış məskənlərində bir çox təbii və tarixi-memarlıq abidələrinin olduğu mühüm turizm məkanları haqqında da məlumat yer alıb.

## Avstraliya mətbuatı

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) müsəlman dünyasında ilk uğurlu demokratik dövlət olaraq meydana gəlmişdi. AZƏRTAC xəbər verir ki, Avstraliyanın "vibmedi.net.au" saytında Azərbaycanın Respublika Gününü 103-cü dəfə qeyd etməsinə həsr olunan məqalə yayımlanıb. Məqalədə bildirilib ki, parlament demokratiyasının və dünyəviliyin əsas prinsipləri üzərində qurulan, Azərbaycan xalqının müstəqillik əzmindən ilhamlanan AXC, dünyanın ən yaxşılarını - Avropanın demokratik dəyərlərini və Şərq mədəniyyətinin cazibəsini özündə birləşdirən yeni bir dövlət və cəmiyyət nümunəsi oldu.

Azərbaycanın Avstraliyadakı müvəqqəti işlər vəkili Ramil Qurbanovun müəllifi olduğu məqalədə deyilir: "Cəmi 23 ay yaşamasına baxmayaraq, ilk cümhuriyyət dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin təməllərini qurmaq və gələcək inkişaf yolunu müəyyənləşdirmək baxımından əhəmiyyətli idi".

Demokratik hüquq və azadlıqların, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının ta-

# Dünya mətbuatı 28 May - Respublika Günündən yazır

nınmasının və daha da əhəmiyyətlisi qadınlara seçki hüququnun verilməsinin respublikanın önəmli uğurları arasında olduğu və bu yolda Azərbaycanın dünyada ilk ölkələrdən biri kimi tanındığı məqalədə xüsusi vurğulanıb.

Qeyd edilib ki, xalqımız 1991-ci ildə yeni tarixi şəraitdə dövlət müstəqilliyini bərpa etdikdən sonra Xalq Cümhuriyyətinin ənənələrinə əsaslanan müstəqil bir Azərbaycan dövləti qurmağa nail olub. Xüsusilə, 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə gəldikdən sonra Azərbaycanın ümummilli lideri Heydər Əliyev millətinə yeni bir ümid verdi və güclü iqtisadi inkişafa sahib müasir Azərbaycan dövlətinin əsasını qoydu.

Məqalədə deyilir: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam edir. Ölkədə siyasi, iqtisadi və sosial islahatlar davamlı şəkildə həyata keçirilir".


DEN HAAG 5
vrijdag 28 mei 2021
Grijze skikolos?
Plan: bomen rondom en een daktuin
Jazzfestival met rijdend podium
DAG VAN DE REPUBLIEK AZERBEIDZJAN
vrijdag 28 mei 2021
SINDS 1918 OPGERICHT
www.azerbaijan.az/en
Rechtszaak rond doodgestoken Sjakie




Vibemedia
Vibe Media
Information is the new weapon
HOME BUSINESS DIPLOMATIC GLOBAL OPINION POLITICAL ABOUT CONTACT DEFENCE
Azerbaijan celebrates 103rd Republic Day
MOST POPULAR
HOT NEWS

Bildirilir ki, suveren hüquqlarını həyata keçirən müasir Azərbaycan bütün sahələrdə müstəqil siyasət yürüdərək dinamik bir ölkəyə çevrilib. Ölkəmiz beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına fəal töhfələr verir, daxili və beynəlxalq səviyyədə tolerantlığı və multikulturalizmi təbliğ edir.

Azərbaycan Respublikası bu gün etibarlı beynəlxalq tərəfdaş, regional və qlobal əhəmiyyətli nəqliyyat və enerji layihələri infrastrukturunun təşəbbüskarı kimi tanınıb və bununla da bölgədə əsas investisiya təyinatlı ölkə rolunu qazanıb.

Bu illər ərzində Azərbaycan beynəlxalq çəkisini durmadan artıran Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyünü öz üzərinə götürməyə nail olub.


Danas
D NOVO Politika Dijalog Društvo Ekonomija Svet Sport Kultura
Azerbejdžan obeležava Dan Republike 28. maja
PROMO TEKST
Dvadeset osmog maja 1918. godine usvajanjem Deklaracije o nezavisnosti osnovana je Azerbejdžanska Demokratska Republika, prva parlamentarna demokratska država u muslimanskom svetu.

2019-cu ildən bəri dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etmək Azərbaycan üçün beynəlxalq aləmdə daha bir uğur hekayəsidir. Prezident İlham Əliyevin təşəbbüsü ilə COVID-19-a təsirli bir qlobal cavabı müzakirə etmək üçün Qoşulmama Hərəkatının ilk virtual zirvəsi baş tutub və Azərbaycan ehtiyac duyulan ölkələrə yardım edib.

Avstraliya ilə ikitərəfli əlaqələrə toxunan diplomatımız, Azərbaycanın Avstraliya İttifaqı ilə əlaqələrə böyük əhəmiyyət verdiyini söyləyib. Bildirib ki, hər iki ölkə daim inkişaf edən ikitərəfli münasibətlərdən, siyasi, humanitar, parlament əlaqələrindən, həmçinin güclü mənbələrə əsaslanan ticarət və investisiya əlaqələri də daxil olmaqla bir sıra sahələrdə qarşılıqlı əməkdaşlıqdan fayda götürür. Avstraliya şirkətləri Azərbaycanda enerji və inşaat sektorlarını dəstəkləyən xidmətlər göstərir, eyni zamanda, azərbaycanlı mütəxəssislər Avstraliyanın aparıcı enerji şirkətlərində çalışırlar.

Müəllif beynəlxalq hüququn dünya tərəfindən tanınmış norma və prinsiplərinə istinadla Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini davamlı və qətiyyətlə dəstəklədiyinə görə Avstraliyaya minnətdarlıq ifadə edərək, iki ölkə arasında əlaqələrin qarşıdan gələn illərdə də inkişaf edəcəyinə, daha sıx xarakter alacağına əminliyini bildirib.

## Serbiya

Serbiyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Zərifə Əlizadənin təşəbbüsü ilə https://www.danas.rs xəbər portalında 28 May -Respublika Günündən bəhs edən məqalə yayımlanıb. Məqalədə 103 il öncə Azərbaycanın dövlətçilik tarixində əlamətdar hadisənin baş verdiyinə, müsəlman dünyasında ilk dünyəvi, demokratik, çoxpartiyalı sistemə malik Azərbaycan Demokratik Respublikasının (ADR) qurulduğuna diqqət çəkilib. ADR-in yaranma tarixi və fəaliyyəti barədə müfəssəl məlumat verilib, dövlət atributlarının, demokratik institutların yaradılması, fundamental azadlıqların təmin olunması istiqamətində əldə edilən nailiyyətlər sadalanıb.

Dahi siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyevin ADR-in siyasi və hüquqi varisi olan müasir Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və dönməzliyinin təmin olunmasında misilsiz xidmətlər göstərdiyi, Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımızın qürur hissi ilə Qarabağa böyük qayıdışa hazırlaşdığı nəzərə çatdırılıb.

İraqın "əl-Muraqib əl-İraqi" qəzetində Azərbaycanın müstəqillik tarixinə həsr olunmuş məqalə dərc edilib. Belə ki, məqalənin müəllifi Mutəz Muhy Əbdülhəmid ADR-in yaranması tarixi barədə oxuculara məlumat verir. Yazıda qeyd edilir ki, 1991-ci ilin oktyabr ayında SSRİ-nin dağılması ilə yaranmış müstəqil Azərbaycan Respublikası ADR-in hüquqi varisidir.

Məqalədə müasir Azərbaycan Respublikasının gücənməsində və inkişaf etməsində ümummilli lider Heydər Əliyevin və onun layiqli varisi Prezident İlham Əliyevin xidmətləri barədə məlumat verilir. Müəllif qeyd edir ki, 2003-cü ildə Azərbaycan xalqı Prezident İlham Əliyevə tam etimad göstərdikdən sonra iqtisadiyyatın həcminin bir neçə qat artmasına, işsizlik və yoxsulluq göstəricilərinin əhəmiyyətli dərəcədə azalmasına, vətəndaşların həyat səviyyəsinin yüksəlməsinə, valyuta ehtiyatlarının çoxalmasına və s. səbəb olan hərtərəfli inkişaf dövrü başladı. Azərbaycan Cənubi Qafqaz regionunda qabaqcıl bir ölkəyə çevrildi və beynəlxalq aləmdə daha çox etimad qazandı.

Məqalədə, həmçinin son illərdə Azərbaycanda həyata keçirilmiş iri iqtisadi layihələrdən də söz açılır.

**Müharibədə üzləşdiyi məğlubiyyəti səbəbindən etirazlar, qarışıqlıqlar və xaos hökm sürən Ermənistan cəmiyyətində hazırda bir də əlavə olaraq, seçkiqabağı hərcmərcilik yaşanır. Hakimiyyətə iddialı qüvvələr və tərəflər bir-birini ittiham edir, bu işğalçı ölkənin mövcud acınacaqlı durumunda bir-birini günahlandırmaqda davam edirlər. Belə olan halda, işğalçı ölkədə hakimiyyətin kimə həvalə olunacağı ermənilərin özlərini də müəmmalı, çətin duruma salıb.**





# Çətin seçim, növbəti yanlışlıq astanasında

TƏHLİL

Ermənistan cəmiyyətində hakimiyyətə iddialı olan heç bir qüvvə qarşı tərəfi, sadə dildə desək, bəyənmir, hətta hər biri ayrı-ayrılıqda digərlərinin hakimiyyətə layiqli olmadığını, uyğunsuz olduğunu bəyan edir. Belə bir bəziyyəti müşahidə etdikdə sual yaranır ki, görəsən, erməni cəmiyyətində həqiqətən də hakimiyyətə layiqli bir siyasi qüvvə, lider, ümumiyyətlə, kimsə varmı? Belə görünür ki, yoxdur və məhz bu səbəbdən də erməni cəmiyyəti çox çətin seçim qarşısında, çox güman ki, növbəti yanlışlıq astanasındadır.

Təsadüfi deyil ki, hakimiyyətə iddialı qüvvələrin bir qismi erməni cəmiyyətinin düşüncəsində qarışıqlıq olduğunu bəyan edir və bu fikirlərinə görə onlarla mübahisə etmək, bunu təkzib etmək fikrimiz də yoxdur, çünki, həqiqətən də bu cəmiyyət başını itirib, deməkdə belə, hər kəs haqlıdır. Nümunə üçün qeyd edək ki, Ermənistanın ikinci prezidenti olmuş Robert Koçaryan, "Zehnlərdə qarışıqlıq, ölkədə əsəbi, gərgin atmosfer hökm sürür", deyib. O, bu ümumi gərgin vəziyyəti dəyişdirməyin ən vacib məsələ olduğunu, işğalçı ölkənin sakitliyə, sükunətə ehtiyac duyduğunu düşünür və düşündüyünü də açıq-aşkar bəyan edir.

"Cəmiyyətimizə sakitlik, sükunət, sülh gətirməyə çalışmalıyıq. Hazırki vəziyyət heç də yaxşı vəziyyət deyil, pisdir. Bu gün ölkəni bu vəziyyətdən çıxarmaq üçün seçkilərdə iştirak edirik, çünki belə bir atmosferdə insan məntiqsiz olur, məntiqi şeyləri anlamır və qəbul etmir. Biz sakitlik gətirməliyik. İnsanların beynində, zehnində qarışıqlıq yaranıb ki, bunu aradan qaldırmaq hər kəsin öhdəsindən gələ bilməyəcəyi işdir. Bu əsəbilik yuxarıdan, ölkə rəhbərliyindən, hakimiyyətdən gəlir", deyə Robert Koçaryan cəmiyyətin psixoloji durumu ilə bağlı sualı cavablandırarkən bildirib.

Eks-prezident, "Ermənistan" blokunun rəhbəri Koçaryan, hətta, Moskvada ona hədiyyə edilən, "Əsəbi dövlətlər" adlı kitabın adının əslində "Ermənistan" olmalı olduğunu deyərək, məhz bu bənzətmə ilə ölkəsinin durumunu xatırlatmağa çalışıb. Bəlkə də Koçaryan buna nail olub, çünki həqiqətən də hazırda işğalçı ölkəni elə əsəbi dövlət kimi xarakterizə etmək olar, hansıki, beyinlər işləmir, əsəbi, məntiqsiz hərəkətlər müşahidə edilir. Bu məntiqsizliyi ölkənin idarə edilməsindən tutmuş, seçki öncəsi proseslərə qədər hər müstəvidə görmək çətin deyil və belə bir vəziyyət erməni cəmiyyəti üçün gələcəkdə də çox acınacaqlı durum vəd edir.

Əslində, Ermənistanın ikinci prezidenti olmuş Robert Koçaryanın özünün də vəziyyəti əsəbidir, onun Paşinyan və komandasına qarşı intiqam hissi göz qabağındadır. Heç eks-prezidentin özü də məntiqi davranış sərgiləmir və bunu müşahidə edən erməni ekspertləri onun hakimiyyətə gəlmək istəyini Ermənistan üçün nə isə etmək yox, intiqam alovu, qisas yanqısı ilə əlaqələndirirlər. Bəlkə də Koçaryan elə öz duyğularını rəhbər tutaraq ölkəsində əsəbi, gərgin atmosfer olduğu barədə belə bir qənaətə gəlib. Amma hər bir halda, həqiqətən də bu işğalçı ölkəni əsəbləri tarama çəkilmiş insanlar idarə edir, təbii ki, əgər buna idarə edir, demək mümkünsə.



Hazırki və müvəqqəti hesab etdikləri Ermənistan hakimiyyətinə müxalif qüvvələr də işğalçı ölkənin həyati problemlər içərisində olduğu qənaətindədirlər. Əslində, bu problemli vəziyyəti inkar etmək də mümkünsüzdür, çünki işğalçı ölkədə problemli olmayan nə isə yoxdur axı. Bu ölkənin daxili və xarici olmaqla, siyasəti problemli, iqtisadiyyatı problemli, sosial sfera problem içərisində boğulur, ictimai vəziyyət daha acınacaqlı, yaşayış şəraiti sıfır səviyyəsindədir, üstəlik gələcəyə ümid etmək üçün də əsas yoxdur. Ümidsizlik girdabına düşən bu işğalçı ölkə vətəndaşları yalançı vədlər, populist çıxışlarla aldadılır, daxili auditoriyaya hesablanan sözlərlə müvəqqəti sakitləşdirilir. Amma bu hara qədər davam edə bilər?

Məsələ burasındadır ki, bəzi qüvvələr ölkədə həyati problemlərin olduğunu doğru desələr də, əsas problemlər, yəni saddaladığımız faciəvi hallar qalır, ölkələri, bəlkə də özləri üçün hansısa ağrılı məsələni problem olaraq qabardırlar. Məsələn, Ermənistanda "Mənim şərəfim var" bloku, seçkilərdə qələbə qazanacağı təqdirdə bir sıra lazımlı qanunvericilik dəyişikliklərinə başlamaq niyyətində olduğunu bəyan edir. Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru, "Mənim Qürurum Var" blokundan baş nazirliyə namizəd olan Artur Vanesyan bunu öz Facebook səhifəsində yazır. Yenə də mübahidə etmirik, Ermənistanda bir sıra qanunvericilik dəyişikliklərinə də ehtiyac var. Amma daha vacib dəyişikliklər, hətta köklü dəyişiklik, yenidən başlamaq, normal yaşayış seçimi lazım olduğu daha vacib məsələdir ki, erməni cəmiyyəti qeyd etdiyimiz kimi bunu ya anlamaq istəmir, ya anladığını qəbul etmək niyyətində deyil, öz xislətlərinə müvafiq olaraq.

Müvəqqəti olaraq baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyan isə bir növ etiraflar edir və bununla həm ittihamlardan canını qurtarmaq istəyir, həm də məhz elə həmin o canı üçün bir də hakimiyyət arzusunu gizlədə bilmir. Məsələn, "Açıq şəkildə deyirəm ki, ordunun siyasətlə heç bir əlaqəsi olmamalıdır", deməklə Paşinyan məğlubiyyət damğasını alnından silmək istəyir və erməni əsgərlərinin rüsvayçı məğlubiyyətinin ona aid olmadığına vətəndaşları inandırmaq istəyir. O, Silahlı Qüvvələrdə islahatların aparılması məsələsində ciddi ehtiyacla qarşılaşdıqlarını etiraf etməklə də özünü sığortalamaq niyyətini biruzə verir. Hakim qüvvənin, yeni öz komandasının 2019-cu ildə aldığı etimad mandatının müharibədəki məğlubiyyət səbəbindən zəiflədiyini deyən Nikol verdiyi vədləri bir də təkrarlamağa da üz tapır, hansıki, eyni zamanda, "Söz verdik, amma bacarmadıq", deyə bacarıqsızlığını da özü etiraf edir.



"Mandatımızı gücləndirmək istəyirik. Əgər istəyiniz məxməri bitirməkdirsə, seçkiyə gedin və bizə bu səlahiyyəti verin, biz yenə bunu edəcəyimizə söz veririk. Buna bir neçə ay əvvəl söz vermişdik amma edə bilmədik, çünki müharibə zamanı zəiflədik, insanların yanımızda olmadığından şübhələndik", deyə Paşinyan, 2018-ci ildə olduğu kimi yenə də daxili auditoriyanı aldatmağa, bunla da hakimiyyət ələ keçirməyə çalışır.

Təbii ki, Nikol Paşinyanın yenə də hakimiyyət istəyi və hətta ən böyük arzusu göz qabağındadır. Bunun üçün o utanmadan vədlər verməkdə davam edir və əslində, onun erməni xalqına verəcək başqa bir şeyi də yoxdur. Nə isə qazanmayıb. Qazandığı yalnız hakimiyyətin, vəzifənin imtiyazlarından, dövlət mülkündən, malından istifadə etmək olub ki, indi bunların heç biri ona yardımçı deyil, əksinə, əleyhinədir. Elə bir zamanlar Milli Təhlükəsizlik Xidmətinə direktor təyin etdiyi Artur Vanesyan da onun əleyhinədir və nə olur-olsun, Nikol Paşinyan olmasın, istəyini gizlətmir, hansıki, bu əqidə də Ermənistan naminə düşüncə tərzi deyil, intiqam, qəzəb, Koçaryanın dediyi kimi, əsəbi dövlətdə olanların sindromudur. Bu sindromla isə ölkəyə layiqli hakimiyyətin gələcəyi, ümulikdə, ölkənin gələcəyi inandırıcı deyil.

Koçaryan, Ermənistana, sakitlik, sükunət lazımdır deməklə, əslində erməni cəmiyyətinin tarixində heç zaman olmayan, olması da müşkülə bənzər bir hal barədə danışır. Çünki, bu dövlət, bu toplum mövcudluğu dövründə hər zaman iğtişaş, təxribat, terror olmadan yaşam tərzi təsəvvür etmir. Öz daxilindən başlamış, qonşu dövlətlərə, dünya ölkələrinə qədər bu erməni cəmiyyətinin çürük məfkurəsi, terrorçuluq ideyaları təsirsiz ötüşməyib və hər zaman da bu nörmal olmayan təfəkkür tərzinin acı nəticələrini həm daddırıblar, həm də yekunda daha ağır şəkldə özləri dadıblar, eyni ilə 44 günlük müharibə dönəmində və müharibə bitdikdən sonra olduğu kimi. Məhz bu baxımdan deyə bilərik ki, Koçaryanın sakitlik, sükunət, sülh barədə dedikləri erməni cəmiyyəti tarixində inqlabi dönüş ola bilər. Bəli, insan kimi, vətəndaş kimi, mehriban qonşuluq şəraitində yaşayanlar kimi yaşamaq istəyirlərsə, sakitliyə, sülhə riayət etməlidirlər ermənilər. Yox, əgər öz işğalçılıq, terrorçuluq, separatçılıq, vandallıq məllərini qorumaq, xislətlərinə uyğun davam etmək istəyirlərsə, bu önların öz seçimidir və yəqin ki, insan kimi, vətəndaş kimi, mehriban qonşuluq şəraitində yaşayanlar kimi yaşamaqdan özlərini məhrum etmək qərarındadırlar.

Göründüyü kimi, Ermənistanda hakimiyyətə iddialı bir dənə də olsun sağlam qüvvə yoxdur. Hakimiyyət iddiasında olanlardan bəzilərinin qisas, intiqam hissi özünü biruzə verir, digərləri sadəcə, Nikol Paşinyana mane olmaq üçün siyasi meydandadırlar, kimlərsə xarici ölkələrin bölgədə arzuladığı çirkin niyyəti və layihəsidir, bir başqaları və ən çox gündəmdə olanlar isə söz verməkdən başqa çarələri olmayan çarəsizlərdir. Belə bir bəziyyətdə görəsən, erməni cəmiyyəti həqiqətən də hakimiyyətə hansı siyasi qüvvəni, hansı lideri, ümumiyyətlə, kimi "layiq" biləcək? Mövcud durum təsdiq edir ki, belə bir layiqli yoxdur və məhz bu anlamda, sözün əsl mənasında Ermənistan, erməni cəmiyyəti çox çətin seçim qarşısında, daha doğrusu növbəti yanlışlıq astanasındadır.

***İnam Hacıyev***

# “44 günlük müharibə şanlı tariximizdir”

**“Prezident İlham Əliyev 2021-ci ilin 28 may tarixində Ağdam şəhərinə səfər etmişdir. Azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri sürətlə davam edir. Baş plan əsasında işğaldan azad olunmuş bütün ərazilər bərpa olunacaq. Ağdam şəhərinin Baş Planı təsdiq ediləcək və onun əsasında şəhər planlı şəkildə bərpa olunacaqdır”. Bunu millət vəkili Eldəniz Səlimov SİA-ya açıqlamasında bildirib.**

Onun sözlərinə görə, Ağdam rayonunun tanınmış şəxsləri Baş Planla tanış olacaq və onların təklifləri də nəzərə alınacaqdır: “Ağdam şəhəri üçün çox önəmli və 140 illik tarixi olan 1 saylı məktəbin təməli qoyuldu. Gələcəkdə burada iş yerlərinin yaradılması üçün Ağdam Sənaye Parkının əsası qoyuldu. Bu parkın ərazisi təqribən 200 hektara yaxındır və gələcəkdə orada yüzlərlə, bəlkə də minlərlə insan işlə təmin ediləcək. Bərdə-Ağdam avtomobil yolunu qurulmağa başladı və artıq yaxın gələcəkdə yol istismara veriləcəkdir. Eyni zamanda, Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisi nəzərdə tutulur. İmarət kompleksinin bərpası ilə əlaqədar artıq işlərə start verilir. Ağdamda İşğal muzeyi və Zəfər muzeyi konsepsiyası artıq hazırlanıb. Şəhərin içində 125 hektarlıq bir meşə zolağı salınacaq. Süni göl yaradılacaq, kanallar çəkiləcək, körpülər tikiləcək. Bütün Qarabağ zonası “yaşıl enerji” zonası olacaq. Bütün şəhərlər “ağıllı şəhər” konsepsiyası əsasında qurulmaqdadır. Ermənilərin törətdikləri cinayətlər artıq bütün dünyaya bəllidir: Xocalı soyqırımı, digər kəndlərimizin sakinlərinin qətlə yetirilməsi, şəhərlərimizin dağıdılması. Bunu bizim qonşumuz olan, bizim çörəyimizi yeyən, bizim torpağımızda özünə yuva salan, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan ermənilər törədiblər. Bizim bütün maddi sərvətimiz məqsədyönlü şəkildə dağıdıldı, talan edildi. Tarixi-dini abidələrimiz söküldü”.

Eldəniz Səlimov bildirib ki, düşmənimiz tərəfindən bizə qarşı törədilən bütün vəhşiliklərə baxmayaraq münaqişənin həllində sülh və diplomatik üsullara sadiq qaldıq: “Azərbaycan tərəfindən lazımi bütün addımlar atmışdır və bununla bütün dünyaya necə mübarik və sülhsevər xalq olduğumuzu açıq-aşkar nümayiş etdirdik. Azərbaycan çalışırdı ki, münaqişəni sülh yolu ilə həll etsin. Ölkəmizin vətəndaşları yaxşı bilirlər ki, sülh danışıqları, sadəcə olaraq, status-kvonun əbədi olmasına istiqamətləndirilmişdi. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər 30 ilə yaxın davam edən danışıqlar müddətində aqressora - işğalçıya təzyiq göstərmədilər, onları məcbur etmədilər, onlara sanksiyalar tətbiq etmədilər. Açıq-aydın demədilər ki, işğalçı qüvvələr Azərbaycan torpağından çıxmalıdır. Ermənistan rəhbərliyi açıq-aydın bildirirdi ki, bu torpaqların bizə qaytarılması mümkün deyil. Belə olan halda faktiki olaraq danışıqlar prosesinə son qoyuldu. Bəzi ermənipərəst qüvvələr bizi günahlandırmağa çalışırdılar. Sanki biz aqressoruq, sanki biz işğalçıyıq. Ona görə də biz hər zaman deyirdik ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmasa, müharibə qaçılmazdır. Xüsusilə keçən ilin iyul, avqust, sentyabr aylarında Ermənistan dövlətinin bizə qarşı hərbi təxribatları nəticəsində baş vermiş hadisələr artıq müharibəni qaçılmaz etmişdi. Uğurlarımızın əsasında güclü dövlət və müstəqil siyasət dayanır. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü və müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. 44 günlük müharibə bizim gücümüzü, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını, xalqımızın birliyini bütün dünyaya göstərdi. Biz bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdik, düşməni torpağımızdan qovduq.

44 günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü bizim üçün əzizdir, doğmadır. Düşmən müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı. Biz müharibə dövründə də özümüzü ləyaqətlə aparmışıq və müharibənin bütün qaydalarına riayət etmişik. Məhz buna görə, Ermənistan tərəfində mülki vətəndaşlar arasında itkilər həddindən artıq azdır. Biz ancaq işğalçı orduya qarşı mübarizə aparmışıq, müharibə aparmışıq. Dinc əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq. Ermənilərdən fərqli olaraq, soyqırım və digər hərbi cinayətlər törətməmişik. Xalqımız üçün torpaqlarımızın işğaldan azad edilməsi ümummilli məsələdir və heç vaxt biz bu vəziyyətlə barışmadıq və bunu açıq bəyan edirdik. İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini bütün dünyaya göstərdi və bu şanlı Qələbə tarixdə əbədi qalacaqdır. Azərbaycan xalqı müzəffər xalq kimi qürur hissi ilə yaşayacaq. Ermənistan məğlub edilmiş dövlətdir və bizim işğal altında olan torpaqlarda törədilmiş vəhşilik o erməni lobbi təşkilatlarının öz xalqı haqqında yaratdıqları mifologiyaya da son qoydu. Çünki bu dağıntıları törədən vəhşidir. Bunun başqa adı yoxdur. Təkcə Ağdam deyil, azad edilmiş bütün torpaqlarda mənzərə eynidir. Sanki bu torpaqlardan vəhşi qəbilə keçib. Bizim qələbəmiz göstərir ki, bütün faşistlərin aqibəti, ermənilərin aqibətinə bənzər olacaq. 30 il ərzində ermənilər dövlət qura bilmədilər. Deməli, bu xalq dövlət qura bilmir. Deməli, bu xalq ancaq başqa böyük dövlətlərin çərçivəsində yaşaya bilir. O böyük dövlətlərin imkanlarından istifadə edib, orada özü üçün həyat qura bilər. Otuz il ərzində onların unikal şansı var idi - əgər bu işğal olmasaydı, əgər düşmənçilik olmasaydı, əgər bu vəhşilik ermənilər tərəfindən xalqımıza qarşı törədilməsəydi, bu gün bəlkə də Ermənistan da müstəqil dövlət kimi yaşaya bilərdi. Açıq etiraf edirlər ki, öz dövlətini, öz sərhədlərini qoruya bilmirlər. Günahı biri-birinin üstünə atırlar - indiki hakimiyyət köhnə hakimiyyətin üstünə, köhnə hakimiyyət indiki hakimiyyətin üstünə. Amma, əslində, onların hamısı günahkardır. Çünki onlar böyük səhv etdilər. Onlar düşünmürdülər ki, bu dərəcədə aciz vəziyyətə düşəcəklər və onların bütün bəlalarının səbəbkarları da məhz elə özləridir. Azərbaycan Ordusu Ermənistanı kapitulyasiya sənədini imzalamağa məcbur etdi. Müharibə dövründə birinci Cəbrayıl rayonu işğaldan azad olunmuşdur. Ondan sonra Füzuli, ondan sonra Hadrut, ondan sonra Murovdağ, Suqovuşan, Zəngilan, Qubadlı. 10 noyabrda Ermənistan kapitulyasiya aktını imzaladı. Özü də nəinki Azərbaycan ictimaiyyəti, bütün dünya bilir ki, Paşinyan hansı formada imzaladı. O da müharibənin, zəfərin kulminasiyası idi, o, əsl kapitulyasiya aktı idi. İndi hər kəs bunu belə qəbul edir. Dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində 44 günlük müharibə öyrənilir. 44 günlük müharibə şanlı tariximizdir. Bu tarix əbədi qalacaqdır, bu tarix dərindən öyrənilməlidir və öyrənilir”.



Millət vəkili onu da bildirdi ki, dünya miqyasında Azərbaycanın göstərdiyi yeniliklər öyrənilir: “Əlbəttə ki, texniki imkanlarımız müharibənin nəticələrinə ciddi təsir etmişdir. Ancaq bayrağı sancan, bayrağı ucaldan, öz sinəsini qabağa verən, ölümə gedən Azərbaycan əsgər-zabiti idi. Biz bu müharibəni, bu Qələbəni bizim qəhrəman hərbçilərimizə borcluyuq, şəhidlərimizə borcluyuq. İstənilən texnikan ola bilər, istənilən maddi imkanın ola bilər, əgər Vətən sevgisi yoxdursa, əgər milli ruh yoxdursa, əgər Vətən uğrunda ölümə getməyə hazır deyilsənsə heç vaxt Qələbə qazanmazsan. Əfsuslar olsun ki, Ermənistan tərəfi öz təxribatçı əməllərindən əl çəkmir. Əgər xalqımızın, dövlətimizin təhlükəsizliyinə zərrə qədər təhlükə olarsa, dərhal yerindəcə düşməni məhv edəcəyik. Onlar da bizim gücümüzü bilirlər və görürlər. Ona görə son günlər ərzində Azərbaycan-Ermənistan sərhədi ərazisində Ermənistan ordusu tərəfindən törədilmiş təxribat, təbii ki, cavabsız qalmamalı idi və qalmadı. Yaşasın Azərbaycan! Yaşasın cənab Prezident İlham Əliyev! Yaşasın Azərbaycan ordusu!”

***Gülyana***

# YAP Suraxanı rayon təşkilatının nümayəndələri qazini ziyarət ediblər

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov və təşkilatın nümayəndələri Yeni Günəşli yaşayış sahəsinin sakini, Vətən Müharibəsi qazisi Bünyadov Sərxan Əlixan oğlunun ailəsini ziyarət edərək, ailəyə sovqat aparıb və qayğıları ilə maraqlanıblar. Səmimi keçən görüş zamanı Vüqar Seyidov şəhidlərimizin xatirəsini əziz tutaraq onların ruhları qarşısında baş əydiyini ifadə edib, qəhrəman şəhidlərimiz bütün xalqımıza heç vaxt unudulmayacaq bir qələbə ərməğan etdiyini vurğulayıb. Qazilərimizin şərəfli döyüş yolunu yüksək qiymətləndirən təşkilat sədri hər bir Azərbaycan vətəndaşının qazilərə və şəhid ailələrinə xüsusi diqqətlə yanaşmağa borclu olduğunu deyib. Bu müqəddəs işdə Cənab Prezident İlham Əliyevin və Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın cəmiyyətimiz üçün etalon təşkil etdiyini qeyd edib.



Sərxan Bünyadov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirərək, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə “Cəsur döyüşçü”, Qubadlı və Füzuli rayonlarının işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə “Qubadlının azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunduğunu bildirmişdir.

Sonda Vətən Müharibəsi qazisinin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatına öz minnətdarlıqlarını bildirib, göstərilən qayğını hiss etmək yaralarının sağalmasına mənəvi dəstək olduğunu deyiblər.

***Zümrüd BAYRAMOVA***

# Bakcell və “ASAN Məktub” növbəti dəfə uşaqların arzularını həyata keçirib




Bakcell və ASAN könüllüləri Tovuz rayonunun bir neçə kəndində yaşayan aztəminatlı və şəhid ailələrdən olan uşaqları “Uşaqların Beynəlxalq Müdafiəsi Günü” münasibətilətəbrik edib.”ASAN Könüllüləri” Təşkilatının “ASAN Məktub” sosial proqramı çərçivəsində həyata keçirilən təşəbbüsün əsas məqsədlərindən həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək, cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır.

www.asanmektub.azsaytına məktub göndərən 20 nəfər uşağa Bakcell və “ASAN Məktub” sosial proqramı tərəfindən oyuncaqlar və məktəb ləvazimatları hədiyyə olunub.

Uzunmüddətli tərəfdaşlıq sayəsində Bakcell və “ASAN Məktub” bir çox bayramlarda uşaqları sevindirən çoxsaylı layihələr həyata keçirib.

Qeyd edək ki, Bakcell şirkəti sosial proqrama həmçinin mobil rabitə dəstəyi göstərir. Bakcell xüsusi qayğıya ehtiyacı olan və həssas qruplara aid uşaqlara dəstək göstərilməsi, onlar üçün bərabər hüquqların vəinklüziv təhsil imkanlarının təmin edilməsinə yönəlmiş bir çox layihələrdə fəal iştirak edir.

***

**Bakcell haqqında**

Azərbaycanın İlk Mobil Operatoru Bakcell şirkəti müasir mobil telekommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl mobil internet xidməti göstərir.

Bakcell və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.

Qeyri-Bakcell abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə “Bakcell”in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.

# “Bir millət, iki dövlət” prinsipinə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən yüksək səviyyəsindədir

**Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub.**



Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətləri ciddi əsaslara malikdir. Ulu Öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” fəlsəfəsi ilə əsaslı təmələ sahib olan tarixi köklərə və qardaşlığa söykənən, hər zaman həmrəylik nümayiş etdirən Azərbaycan və Türkiyə arasında əlaqələr siyasi, iqtisadi-ticarət, humanitar, hərbi, təhsil və digər sahələrdə uğurla inkişaf edir. Şübhəsiz ki, çoxşaxəli ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi yolunda onların qətiyyətli siyasəti, qardaş ölkənin, Türkiyənin Azərbaycanın əzəli torpaqlarının işğaldan azad edilməsi uğrunda haqq işinə bütün müstəvilərdə açıq, tərəddüdsüz mənəvi və siyasi dəstəyi xalqımız tərəfindən çox yüksək qiymətləndirilir. Bütün sahələrdə Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, birliyi özünü təsdiq etdi və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi dəstək, əlbəttə, həmişə bizim xatirimizdə olacaqdır, bizim qəlbimizdə yaşayacaqdır. Türkiyə müharibənin ilk saatlarından Azərbaycana çox böyük siyasi və mənəvi dəstək göstərmişdir. Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk dəqiqələrdən, ilk saatlardan bəyanatlarla çıxış etmiş və demişdir ki, Türkiyə Azərbaycanın yanındadır. Qələbəni qeyd etdiyimiz günlərdə paytaxtımızda və ölkənin bütün bölgələrində bayraqlarımız ölkələrimizin varlığını və gücünü dünyaya, həmçinin dostlarımıza və düşmənlərimizə tanıdırdı. Sözsüz ki, Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Eyni zamanda, türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini bu gün şərtləndirən ən mühüm amillərdən biri də məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir. Artıq bu gün Türkiyə Respublikası əhəmiyyətli sosial-iqtisadi və elmi tərəqqi, hərtərəfli inkişaf yolu keçərək dünya miqyasında müstəqil siyasət yürüdən güc mərkəzinə çevrilmişdir. Bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ölkələrimiz arasında əlaqələr daim inkişaf edir. Müasir dövrün tələbləri elm, təhsil sahəsində inteqrasiyanın dərinləşdirilməsinin, bu sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini göstərir. Bu baxımdan yüksəkixtisaslı kadr hazırlığı məqsədilə xarici ölkələrin, xüsusilə Türkiyənin qabaqcıl ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin davamlı inkişaf etdirilməsi universitetlərin prioritet istiqamətləri kimi müəyyənləşdirilib. 2018-ci ildə Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin müvafiq Sərəncamı ilə “2019-2023 illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” təsdiq edilib. Dövlət Proqramının icra istiqamətlərinə yerli ali təhsil müəssisələrində beynəlxalq ikili diplom proqramlarının təsis edilməsi və Azərbaycan vətəndaşlarının nüfuzlu xarici ali məktəblərdə doktorantura səviyyəsi üzrə təhsilinin təşkili aiddir. Dövlət Proqramı çərçivəsində təsis edilməsi nəzərdə tutulan 5 beynəlxalq ikili diplom proqramında artıq 3-ü 2020-ci ildən həyata keçirilir. Şübhəsiz ki, təhsil sahəsində əməkdaşlığın inkişafı prinsipial məsələlərdəndir. Təhsil sahəsində əməkdaşlıq olduqca önəmlidir. Çünki gənc nəslin yetişdirilməsi, bir-birinə bağlı olması üçün çox önəmli addımlar atılmalıdır. Eləcə də, Türkiyənin təcrübəsi ölkəmiz üçün çox önəmlidir. İşğaldan azad olunmuş şəhərlərin baş planı hazırlanır və bu baş planların tərkib hissəsi kimi məktəblərin tikintisi nəzərdə tutulur. Şuşa şəhərində ermənilər tərəfindən dağıdılmış məktəbin təməli qoyulmuşdur. Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın səfəri çərçivəsində Türkiyə tərəfindən təklif edilmiş bir hədiyyə kimi, məktəbin də təməlqoyma mərasimi olub. Həm təhsil, təhsilin keyfiyyətinin qaldırılması, eyni zamanda, Türkiyə və Azərbaycan gənclərinin bir-birinə daha sıx bağlı olması ilə əlaqədar əlavə tədbirlər görülməlidir. Prezidenti İlham Əliyevin mayın 27-də Türkiyə Respublikasının milli təhsil naziri Ziya Selçuku qəbul edərəkən bildirdiyi kimi: “Xüsusilə, Azərbaycan, dediyim kimi, bu gün böyük quruculuq işlərinin astanasındadır və həm azad edilmiş torpaqlarda, həm də bütün ölkə üzrə yeni təhsilli kadrların hazırlanması çox böyük önəm daşıyır. Ona görə, azad edilmiş torpaqlarda ixtisaslar üzrə, o bölgələrin potensialına uyğun olaraq peşə məktəbləri yaradılmalıdır. Əlbəttə ki, biz Türkiyə tərəfinin dəstəyinə ümid edirik”. Beləliklə, göründüyü kimi qeyd edə bilərik ki, qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan və “Bir millət, iki dövlət” prinsipinə əsaslanan Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən yüksək səviyyəsindədir.

***Kamil Qafarov***
***YAP Səbail rayon təşkilatı İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti***

# Hərbi Qənimətlər Parkının yaradılması tarixi qələbəmizin əbədiləşməsidir

## YAP Kəlbəcər rayon təşkilatının gənclər birliyinin üzvləri Hərbi Qənimətlər Parkını ziyarət ediblər




YAP Kəlbəcər rayon təşkilatının gənclər birliyinin sədri Hikmət Bağırov, gənclər təşkilatının üzvü Anar Əhmədov, şəhid valideynlər Səlyəddin Bəylərov, Həşim Muxtarov, Nizami İlyasov, Dağıstan Məmmədov, Hidayət Şəfiyev, Məzahir Əhmədov, Şükufə Həmzəyeva, Mahir Məmmədli, Kamil Abdullayev, Əmrah Mikayılov, Habil Atayev, Nəcəf Mustafayev, Fizuli Məhərrəmli Hərbi Qənimətlər Pavrkını ziyarət ediblər.YAP Kəlbəcər rayon təşkilatının gənclər birliyinin sədri Hikmət Bağırov Hərbi Qənimətlər Parkının gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində böyük önəm kəsb etdiyini vurğulayıb.

Qeyd edib ki, Hərbi Qənimətlər Parkı Azərbaycan Ordusunun şanlı Qələbəsinin bir növ canlı muzeyidir, xalqımızın qürur mənbəyidir: “Müzəffər Ali Baş Komandan, Prezidenti İlham Əliyevin iştirakı ilə aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışı Azərbaycan Ordusunun gücünü, qüdrətini dünyaya nümayiş etdirən bir mesajdır, həm də, Ermənistana növbəti “Dəmir yumruq” xəbərdarlığıdır. Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının və qüdrətli dövlətlərinin 30 il ərzində Ermənistanın işğalçılıq siyasətini dayandıra bilməməsi və ya buna bilərəkdən şərait yaratmaları beynəlxalq aləmdə baş alıb gedən ikili standartların nəticəsi idi. Ancaq dövlətimizin başçısının dediyi kimi, işğal əbədi ola bilməzdi. Azərbaycan dövləti ərazi bütövlüyünün təmin olunması üçün bütün vasitələrdən istifadə edirdi. Dünyanın 50 ən güclü ordusu sırasında olan Silahlı Qüvvələrimiz işğal altında olan ərazilərimizi öz gücü ilə azad etmək iqtidarında idi”.

H.Bağırov onu da bildirib ki, bu park çox böyük əhəmiyyət daşıyır. Yetişən gənc nəsil, məktəblilər, tələbələr, ölkəmizə gələn turistlər bu parkı ziyarət etdikcə Ermənistanın məğlub, Azərbaycanın isə qalib ölkə olduğunun bir daha şahidi olacaqlar. Bir faktı da qeyd edək ki, biz haqq işi uğrunda, ərazimizin beynəlxalq səviyyədə tanındığı ərazi bütövlüyü uğrunda mübarizə aparmışıq. Dövlət başçımızın düzgün müəyyənləşdirdiyi siyasi strategiya sayəsində buna nail olduq: “Aprelin 12-də cənab Prezident İlham Əliyevin iştirakı ilə Parkın açılışı baş tutdu. Cənab Prezidentin orada səsləndirdiyi fikirlər, eyni zamanda, 44 günlük müharibə dönəmində xalqımızın göstərdiyi birlik bugünkü Hərbi Qənimətlər Parkının yaradılmasının əsas səbəbidir. Hesab edirəm ki, bu Park gələcək nəsillərin tariximizi daha yaxından öyrənməsinə imkan verəcək.”YAP Kəlbəcər rayon təşkilatının GB-nin sədri onu da bildirib ki, biz bu gün burada döyüş meydanında düşməndən alınan qənimətləri yaxından izlədik: “Düşünürəm ki, yeni dövr tariximiz digər təşkilatların nümayəndələri üçün də maraqlı olmalı, onlar da bu unikal Parkı ziyarət etməlidirlər.”Şəhid valideynlər də qürur hissilə bildiriblər ki, Hərbi Qənimətlər Parkı Ermənistanın işğalçılıq əməllərinin aynası olmaqla, həm də Azərbaycan 30 ilə yaxın qanunsuz işğal altında saxlanılan ərazilərinin bütövlüyünü Vətən müharibəsi nəticəsində Azərbaycan oğullarının qanı və canı bahasına təmin etdi. Şəhid valideynləri Vətənimizin ərazi bütövlüyünün bərpa olunmasında onların övladlarının da iştirakından qürur duyduqlarını, ölkəmizdə şəhid ailələrinə və qazilərə dövlətin, xüsusilə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısından razılıqlarını bildiriblər. Qeyd ediblər ki, gənclərimiz mütəmadi olaraq bu parkı ziyarət etməli, düşmənin kapitulasiya olduğunu, igidlərimizin şücəatinin şahidi olmalıdırlar. Çünki bu Park bizim gənclərimiz üçün bundan sonra da inam nöqtəsi olacaq.

***RƏFİQƏ HÜSEYNOVA***



RƏFİQƏ

# “Paşinyan onu hansı tində imzalayıb”

**Tifaqı olmayan dağılmış “yanların” güclü dövlətə qulluq edən çaqqalları, gorbagorları...ancaq layiq olduğu cavabı almalıdır. Bu nə birinci, nə də sonuncu cavabdır. Prezident İlham Əliyevin Ağdama səfəri zamanı Paşinyanın hansı “ağıl” sahibi olduğunu bir daha dünyaya nümayiş etdirdi.**

Necə? Azərbaycanın Qalib Lideri Ağdam səfəri zamanı bildirdi ki, tinə girməklə: “10 noyabr - Ermənistanın kapitulyasiya aktı. Özü də nəinki Azərbaycan ictimaiyyəti, bütün dünya bilir ki, o, hansı formada imzalandı. Bu günə qədər mən bilmirəm, Paşinyan onu hansı tində imzalayıb. O da müharibənin, zəfərin kulminasiyası idi, o, əsl kapitulyasiya aktı idi. İndi hər kəs bunu belə qəbul edir”. Bəli, hamı gördü Paşinyanın “ağlını”, hamı gördü o vəhşi, quldur goreşənlərin, çaqqalların, 5 qramdan sonra donuz kimi çamurda eşələnən Paşinyanlar kimi üzütüpürcəkli dabanyalayanların vəhşiliyini, barbarlığını. Hamı, bütün dünyanın həsəd apardığı Azərbaycanın o zəngin torpaqlarını, abidələrini, qəbirlərini faşist kimi dağıdıb, sonra da həyasızcasına onun, bunun qabağında əyilərək yalamağa ayaq belə tapa bilməyən faşistxislətli, işğalçı olduğunu özü öz dili ilə deməsi bir daha “erməni” deyilən xalqa xəstə, əxlaqsız, küçə qulduru Paşinyanın başçılıq etməsi, heç də təəccüb doğurmur. Çünki bu bədbəxt ermənilərin adına heç vaxt “ağıllı-başlı” “rəhbər” qismət olmayıb.

## Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi: “Görün, kim rəhbərlik edib Ermənistana, hansı cəllad, hansı alçaq mənəviyyat sahibi?!”

Bəli, dövlət başçımızın hər sözündən insan olan hər bir kəs əriyib muma dönərdi, ancaq bu cəllad, mənəviyyatsız çaqqal Paşinyanlara dəfələrlə dərs verib və çatdırıb ki, Ermənistana cəllad, alçaq mənəviyyatsız, vandallardır, barbarlar rəhbərlik ediblər: “Bizim şəhərlərimiz müharibə dövründə dağıdılmayıb. Müharibə dövründə şəhərləri belə dağıtmaq mümkün deyil. Müharibədən sonra işğal dövründə bütün binaları, bütün yaşayış yerlərini söküblər. Onlar vandallardır, barbarlardır. Amma iyirmi il Ermənistana rəhbərlik ediblər”.

## Bədbəxt xalq hələ də bədbəxtçiliyin, rəzilliyin nə olduğunu anlamır...

Paşinyan kimi həyasız çaqqallar, olmayan tifaqsızlar, bədbəxtlərdir. Bu bədbəxt xalq hələ də bədbəxtçiliyin, rəzilliyin nə olduğunu anlamırlar. Anlamırlar ki, murdar donuz kimi yerdə eşələnən, küçədə ağzının suyunu axıda-axıda qışqıran, ağzı qulağının dibinə çatan rəzildən ancaq belə danışmağı gözləmək olar. Bir də Paşinyan kimi murdar çaqqalların Qarabağımızın tacı olan, nəinki Şuşada, Ağdamda, bütünlüklə Qarabağ Azərbaycandır o pak torpaqda olmağı böyük cinayətdir. Bəli, cinayətdir! Ona görə də, təkcə Paşinyan yox, həm də erməni xalqı da bədbəxt və rəzildirlər ki, bu gün özlərini elə bir quyuya salıblar ki, ordan çıxa bilmirlər. Bu yerdə dünyanın tanınmış simalarının Paşinyan kimi erməni abırsızlığı, riyakarlığı və namərdliyi barədə aforizmlərə diqqət yetirmək kifayətdir ki, bu “yan”lar nə xalq kimi xalq olublar, nə də dövlət kimi dövlət.Erməni tarixinin “atası” sayılan MOVSES XORENASİ erməniləri dördayaqlı heyvan adlandırıb. Bəli, dördayaqlı heyvanlardır, bu “yanlar”. Bu gün Paşinyan kimilərin elə döyüş meydanında hərbi qənimət kimi texnikaların içindən çıxan başsız erməni papaqları bir daha sübut etdi ki, bu xalq həqiqətən də nə papaq taxmağa “başları”, nə də “başı papaqlı” olmağa nə adət ediblər, nə də layiq deyillər. Onların layiq olduğu bir şey var: başqa xalqların əsarətində boynu zəncirli və qulağı sırğalı qul kimi və gündəlik ruziləri üçün onun-bunun dabanını yalamaq. Çünki sərbəst qalan kimi quduz köpək kimi hər tərəfə hürürlər. Başqa cür də ola bilməz. Çünki tifaqı olmayan dağılmış “yanlar” güclü dövlətə qulluq edən dünyada ən ləyaqətsiz xalq kimi tarixə düşən çaqqal, gorbagor xalqdır.

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi – Hövsan Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə

# ELAN

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi Zığ şossesi-Hava Limanı 12-ci km. "22" ünvanında yerləşən Hövsan Yaşayış Kompleksinin 1 saylı binası üzrə 13, 4 saylı binası üzrə 36, 5 saylı binası üzrə 87, 6 saylı binası üzrə 30, 7 saylı binası üzrə 77, 8 saylı binası üzrə 16, 9 saylı binası üzrə 16, 10 saylı binası üzrə 16 və 11 saylı binası üzrə 16 mənzilin, ümumilikdə 307 mənzilin satışı 1 iyul 2021-ci il tarixində saat 11:00-da başlayacaq və 15 iyul 2021-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 6 iyul 2021-ci il tarixində saat 11:00-da başlayacaq və 15 iyul 2021-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (**www.e-gov.az**) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla **www.mida.gov.az** və **www.mida.az** internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 307 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 08.05.2018-ci il tarixli 25318, 26.10.2018-ci il tarixli 26212 və 30.11.2018-ci il tarixli 26411 nömrəli müsbət rəyləri mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən mənzillərin mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 7076,02 | 7 | 18 | 1 | 5 | 37,9 - 38,6 | 47,84 - 48,75 | "HN Construction" MMC (binanın 1-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14; "Perlit" MMC (binanın 4-cü və 5-ci seksiyaları) / Gəncə şəhəri, Azərbaycan Dövlət Aqrar Universitetinin yataqxanası, ev 6 | 29 dekabr 2019-cu il |
| | | | | 2 | 7 | 51,2 - 61,2 | 62,58 - 74,28 | | |
| | | | | 3 | 1 | 72,8 | 88,15 | | |
| 4 | 7076,02 | 7 | 18 | 1 | 13 | 37,9 - 39,2 | 47,85 - 49,96 | "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC (binanın 3-cü və 4-cü seksiyaları) / Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, ev 1937-ci məhəllə | 31 mart 2020-ci il |
| | | | | 2 | 23 | 51,3 - 68 | 65,45 - 83,52 | | |
| 5 | 7076,02 | 7 | 18 | 1 | 26 | 37,9 - 39,2 | 47,7 - 49,96 | "Merkuri-İnşaat" MMC ("Conco" MMC ilə konsorsium) (binanın 1-ci və 2-ci seksiyaları) / Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64, mənzil 143; "Araz İnşaatçı" MMC (binanın 3-cü, 4-cü və 5-ci seksiyaları) / Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, məhəllə 851, mənzil 10/86 | 28 fevral 2020-ci il; 29 mart 2020-ci il |
| | | | | 2 | 59 | 49,9 - 69,3 | 61,39 - 84,11 | | |
| | | | | 3 | 2 | 67,2 - 67,5 | 84,99 - 85,88 | | |
| 6 | 7076,02 | 7 | 18 | 1 | 9 | 37,9 - 38,6 | 48,08 - 48,76 | "Chinar İnshaat" MMC ("Caspian Service" MMC konsorsium) (binanın 1-ci seksiyası) / Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18; "Mək-An" MMM (binanın 3-cü və 4-cü seksiyaları) / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, ev 26 N; "SNT" İnşaat Şirkəti (AKA Şirkəti ilə konsorsium) (binanın 5-ci seksiyası) / Bakı şəhəri, Nərimanov rayonu, Sabit Rəhman küçəsi, ev 28 | 29 dekabr 2019-cu il; 29 mart 2020-ci il; 29 mart 2020-ci il |
| | | | | 2 | 20 | 50,9 - 64,1 | 61,9 - 78,56 | | |
| | | | | 3 | 1 | 68,6 | 85,32 | | |
| 7 | 7076,02 | 7 | 18 | 1 | 14 | 38,5 - 38,6 | 47,7 - 48,75 | "NN Group" MMC (binanın 1-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, ev 41, mənzil 47; "Hünər-İnşaat" Firması (binanın 4-cü seksiyası) / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 18 iyun 2020-ci il; 18 iyun 2020-ci il |
| | | | | 2 | 34 | 51,1 - 61,1 | 65,15 - 74,15 | | |
| | | | | 3 | 29 | 69,4 - 73,3 | 84,39 - 88,15 | | |
| 8 | 652,96 | 10 | 1 | 2 | 16 | 58,1 - 58,9 | 70,64 - 71,12 | "Chinar İnshaat" MMC ("Caspian Service" MMC konsorsium) Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18; | 18 iyun 2020-ci il |
| 9 | | 10 | 1 | 2 | 16 | 58,4 - 58,9 | 70,64 - 71,12 | "Chinar İnshaat" MM ("Caspian Service" MMC konsorsium) Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18; | 18 iyun 2020-ci il |
| 10 | 652,96 | 10 | 1 | 2 | 16 | 58,4 - 58,9 | 70,64 - 71,12 | "Perlit" MMC Gəncə şəhəri, Azərbaycan Dövlət Aqrar Universitetinin yataqxanası, ev 6 | 18 iyun 2020-ci il |
| 11 | | 10 | 1 | 2 | 16 | 58,4 - 58,9 | 70,64 - 71,12 | "Perlit" MMC Gəncə şəhəri, Azərbaycan Dövlət Aqrar Universitetinin yataqxanası, ev 6 | 18 iyun 2020-ci il |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə** həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

1 otaqlı mənzillərin qiyməti – **32 215** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **42 415** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **57 120** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **138-143 manat** | **182-253 manat** | **245-268 manat** |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 32 215 | 3 221 | **28 994** |
| 2 | 42 415 | 4 241 | **38 174** |
| 3 | 57 120 | 5 712 | **51 408** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Hövsan Yaşayış Kompleksinin **www.hovsan.mida.gov.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya* **www.mida.gov.az** *və* **www.mida.az** *internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

# Sahibsiz uşaqların sahibi kimdir? - Dövlət, cəmiyyət, yoxsa...

## 1 iyun

Uşaqların Beynəlxalq Müdafiəsi günüdür

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Bu yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

ARAŞDIRMA

### Ekspertlər: Uşaqpulu bərpa edilməli, uşaqların ailələrə verilməsi proseduru sadələşdirilməlidir

Azərbaycanda 18 yaşadək uşaqlar ölkə əhalisinin 30 faizini (3 milyon) təşkil edir. Hər il orta hesabla 150 min körpə dünyaya gəlir. Rəsmi rəqəmlərə görə, hazırda respublikada 20 mindən çox uşaq valideyn himayəsindən məhrumdur. Sahibsiz uşaqların demək olar ki, təxminən 50 faizi uşaq evlərində məskunlaşıb. Qalanları küçələrdə yaşayır. Bəs onların taleyi ilə maraqlanan varmı, onları normal vətəndaş kimi böyütmək vəzifəsini dövlət və cəmiyyət olaraq nəcə yerinə yetiririk?

### Balaca Rasimin "artistliyi", yoxsa xəstə anası uğrunda fədakarlığı?

Bir neçə gün əvvəl, bazarların birində yerdə oturub ağlayan azyaşlı uşağı görüb yaxınlaşdıq. Qısa söhbət zamanı maraqlı məsələlər ortaya çıxdı.

***-Bala, niyə ağlayırsan?***

-Heç, elə-belə...

***-De görək nə olub, burda nə edirsən?***

-Çay satıram

***-Kimə?***

-Avtobus sürücülərinə, satıcılara...

***-Adın nədir?***

-Rasim

***-Bəlkə bir kömək lazımdır, kimsə səni incidir?***

-Yox, pulumu itirmişəm...

***-Nə qədər pulun itib?***

-7 manat

***-Səni çay satmağa kim göndərir?***

-Atam

***-Bəs özü işləmir?***

-İşləyir, amma anam xəstədir, çox pul lazımdır...

***-Neçə yaşın var?***

-12-yə az qalıb

***-Sən yaşda uşağın işləməsi qanunla qadağandır, bunu bilirsənmi?***

-Nə bilim...

***-Bəs polislər sənə heç nə demirlər?***

-Yox

***-Məktəbə gedirsənmi?***

-Hə, indi dərs yoxdur, məktəb vaxtı dərsdən sonra çay satıram.

***-Bəs dərslərini nə vaxt hazırlayırsan?***

-Gecə evə qayıdandan sonra

***-Necə oxuyursan?***

-4-5 alıram bütün dərslərdən

***-Səninlə sizə gedə bilərikmi?***

-Yox, atam məni döyər ki, niyə tanımadığın adamı evə gətirmisən...

***-Mən sənə 7 manat versəm evə gedərsən?***

-Yox, gərək bu termosdakı çayı da satım qurtarım...








***-Termosdakı çayın pulunu da versəm necə?***

-Mən özbaşıma gedə bilmərəm, gərək atam gəlib özü məni aparsın...

Bu anda bir gənc oğlan bizə yaxınlaşır: "Bu uşağa pul verməyin, o hər gün gəlib burda artistlik edir, adamlardan pul qoparır".

Nədən bilirsiniz- deyə soruşduq, suala sualla cavab verdi: "Sizə 7 manatım itib dedi, düzdürmü? O hər gün eyni sözü adamlara deyir, elə bil başqa rəqəm bilmir, bəziləri verir, bu da bir azdan gəlib başqalarına eyni şeyi deyir".

Uşaqdan niyə belə etdiyini soruşduq, heç bir cavab vermədi, elə yazıq-yazıq üzümüzə baxırdı. 12 yaşlı bir uşağı bu yola vadar edən valideyni çox böyük ehtimalla kənardan bizi seyr edirdi...

### Polis: "Bizim qaraçılara gücümüz çatmır, onların qanun zad veclərinə deyil"

Rasim kimilər son vaxtlar azalmaq əvəzinə artır. Ölkəmizdə qadağan olunmasına baxmayaraq düz polisin gözü önündə onlar istismar edilirlər. Yuxarıdakı halda, yaxınlıqdakı polisə bunu irad tutanda maraqlı cavablar aldıq.

* Uşaqların işlədilməsi, dilləndirilməsi qanunla qadağandır, siz buna niyə yol verirsiniz?

* Onların çoxu qaraçılardır, onlarla biz bacarmırıq...

* Necə yəni, qanunlarımız qaraçılara aid deyil? Mən bilən Əmək Məcəlləsində belə bir istisna yoxdur...

* Onların qanun zad vecinə deyil, qovmaqdan yoruluruq, yenə də gəlirlər...

* Həbs edin, uşaqları alıb internata verin, bir tədbir görün, yoxsa polisin onlara gücü çatmır?

* Çatmır də deməli. Yaxınlaş bir söz de, gör sənin üzünə necə şırım açırlar..

* Mən polis deyiləm, dövlət sizi bütün zəruri vasitələrlə təchiz edib və lazımi səlahiyyət verib.

* Qardaş nə istəyirsən bizdən, biz bacarmırıq bunlarla...

"Diləndirilən uşaqlara pul verməklə onların istismarına şərait yaradırıq"

Ardı Səh. 15

# Sahibsiz uşaqların sahibi kimdir? - Dövlət, cəmiyyət, yoxsa...

## 1 iyun

Uşaqların Beynəlxalq Müdafiəsi günüdür





ARAŞDIRMA

Əvvəli Səh. 14

Sosioloq-jurnalist Elçin Bayramlı deyir ki, Bakı küçələrində maşın pəncərələri silmək, bazarlarda yük daşımaq, kiçik ticarətlə məşğul olmaq, dilənmək kimi işlər görən azyaşlılar azalmaq əvəzinə çoxalır.

“Əksər vətəndaşlarımız bəzi şeyləri onlardan alırlar, ya da onlara pul verirlər ki, acından ölməsinlər. Lakin bu çıxış yolu deyil. Küçə uşaqları problemi dövlətin və cəmiyyətin birlikdə və ciddi şəkildə həll etməli olduğu problemdir. Bu uşaqlarla xüsusi dövlət və qeyri-hökumət təşkilatları məşğul olmalı, onları internat məktəbinə yerləşdirməli və ciddi nəzarətdə saxlamalıdır”- sosioloq bildirdi.

Sosioloq deyir ki, son vaxtlar azyaşlı uşaqlardan dilənmək məqsədilə istifadə halları da geniş yayılıb: “Hətta bir neçə günlük körpənin 2 yaşlı başqa bir körpənin körpənin qucağına verilərək diləndirilməsi halına da rast gəlirik. Çox vaxt bu hallara polis göz yumur. Deyim ki, azyaşlı körpələrin dilənçi kimi istifadəsinə şərait yaratmaqda bizim polislərdən də çox rolumuz var. Əgər biz prinsipial olaraq uşaqlara pul verməsək, onlardan bu məqsədlə istifadə edə bilməzlər”.

Elçin Bayramlı deyir ki, əksər ölkələrdə verilən aylıq uşaqpulunun bizim ölkədə verilməməsi bu problemin həll edilməməsinə, əksinə, kəskinləşməsinə səbəb olur: “Küçəyə buraxılan uşaqların dəmək olar ki, hamısı yoxsul ailələrin övladlarıdır. Ya da ki, valideynini itirmişlərdir. Uşaqpulu bərpa edilsə, sahibsiz uşaqlara da təhkim olunmuş himayəçiləri baxa bilər. Uzun illərdir ki, uşaqpulunun bərpası ilə bağlı bütün səviyyələrdə müzakirələr aparılır, lakin hələ də bir qərar yoxdur. Heç olmasa, yoxsul ailələrin uşaqları və heç kimi olmayan uşaqlar üçün aylıq müavinətlər verilməlidir. Azı yaşayış minimumu məbləğində”.



### “Küçə uşaqları” arasında cinayət halları niyə artır?

Qeyri-rəsmi məlumatlara görə, Azərbaycanda sahibsiz uşaqların sayının 50 mindən artıqdır. İşləyən uşaqların yaş həddi oğlanlar üçün 12-14, qızlar üçün isə 12-16 yaş təşkil edir. Bu yaşda uşaqların əksəriyyəti gündəlik yeməklərini əldə etmək üçün işləyirlər.

Müxtəlif uşaq təşkilatlarının hesablamalarına görə, küçə uşaqlarının 90 faizdən çoxu təhsildən yayınır. Bu uşaqlar gələcəkdə uşaq alverinin, zorakılığın, cinsi istismarın qurbanı olurlar. Sahibsiz uşaqların cəmiyyətə reabilitasiyası, onların ailələrə verilməsi məqsədilə dövlət tərəfindən bir neçə proqramın həyata keçirilməsinə baxmayaraq problem tam həll olunmayıb.

Bakıda “küçə uşaqları”nın sayı 1000-dən az deyil. Həmin uşaqlar üçün şəhər küçələri evlərini əvəzlədiyindən, onlar küçədə işləyir, küçədə əylənir, sahibsiz tikililərdə və xarabalıqlarda yatırlar. Bu uşaqların əksəriyyətində ağır xəstəliklər var.

Bakı küçələrində işləyən azyaşlı uşaqların böyük əksəriyyəti spirtli içki içir, siqaret çəkir, oğurluğu qəbahət saymır. Belə uşaqlarda insanlara qarşı aqressiya müşahidə olunur. Son illərdə sahibsiz uşaqlar arasında qanun pozuntularının sayı artıb. Azyaşlılar arasında artıq “kriminal avtoritet”lər peyda olmaqla yanaşı, onların törətdikləri cinayətlərin arasında da xüsusilə ağır halların sayı durmadan yüksəlir. “Küçə uşaqları” arasında intihar edənlər də artır.

### “Uşaqların ailələrə verilməsi prosesi sadələşdirilməlidir”

Sağlam Cəmiyyət Hərəkatının hüquqşünası Nübar İsmalıyova deyir ki, Əmək qanunvericiliyi Azərbaycanda yaşı 15-dən az olan şəxslərin işə qəbul edilməsinə yol vermir. “16-18 yaş qrupuna daxil olan uşaqların isə, əmək şəraiti ağır və zərərli iş yerlərində, yeraltı işlərdə, uşaqların əxlaqına mənfi təsir göstərən gecə klublarında, barlarda, kazinolarda, spirtli içkilərin, tütün məmulatlarının narkotik vasitələrin və toksik maddələrin istehsalı, daşınması, satışı və saxlanılması yerlərində işləməsi qadağandır”.



Hüquqşünas deyir ki, bizim qanunvericilik azyaşlı uşaqların fiziki və mənəvi keyfiyyətlərinə zərbə vuran işlərə cəlb olunmasını qadağan etsə də, bu qanunun tələblərinə riayət edilmir: “İşəgötürənləri uşaq əməyindən istifadəyə uşaqların əməyinin ucuz qiymətləndirilməsi və onların daha asan idarə olunması həvəsləndirir. Təəssüf ki, bununla bağlı ciddi cəza tədbirlər görülmür”.

Ekspertin fikrincə, sahibsiz uşaqları internatlara yığmaq da çıxış yolu deyil: “Yaxşı olardı ki, onlar uşağı olmayan ailələrə təhvil verilsin. Çünki ailə mühiti, ailə tərbiyəsi daha təbii və daha sağlamdır. Həm psixoloji, həm fiziki cəhətdən. Bizdə övladlığa uşaq götürmək prosesi o qədər çətin, uzunçəkən, mürəkkəb və əziyyətlidir ki, uşağı olmayan ailələr, övladlığa uşaq götürə bilmirlər. Mən bu prosesin niyə bu qədər çətin, deyərdim ki, qeyri-mümkün hala gətirilməsinin səbəbini başa düşə bilmirəm. Bu məsələ həm ictimai, həm parlament səviyyəsində müzakirə olunmalıdır”.

### Uşaq hüquqları qanunvericilikdə necə təsbit olunub?

1959-cu il noyabrın 20-də BMT-də Uşaq Hüquqları Bəyannaməsi, 1989-cu ildə isə “Uşaq hüquqları haqqında” Konvensiya qəbul edilib. İndiyədək 190 dövlət, o cümlədən Azərbaycan (1992) həmin konvensiyaya qoşulub. 1993-cü ildə ölkəmiz “Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi haqqında” Ümumdünya Bəyannaməsinə qoşulub.

2000-ci ildə BMT-nin “Minilliyin Sammiti”ndə isə Azərbaycan prezidenti Konvensiyanın “Uşaqların silahlı münaqişəyə cəlb olunması” və “Uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyası” üzrə Fakultativ Protokollarını imzalayıb.

2004-cü ildə Azərbaycan Beynəlxalq Əmək Təşkilatının “Uşaq əməyinin ən pis formalarının ləğv edilməsi” haqqında 182 saylı Konvensiyası və eyni adlı 190 saylı Tövsiyəsinə, həmçinin Beynəlxalq Övladlığa Götürməyə dair Haaqa Konvensiyasına qoşulub. Bu sahədə əsas normativ sənəd 1998-ci il mayın 19-da qəbul edilmiş “Uşaq Hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunudur. Bu qanun uşaqların beynəlxalq səviyyədə təsbit olunmuş əsas hüquq və azadlıqlarını, eləcə də bu hüquqların reallaşdırılması üçün dövlətin vəzifələrini özündə əks etdirir.

Mövcud vəziyyətdə dövlət öz üzərinə götürdüyü öhdəliklərə, müvafiq qanunvericiliyə uyğun müəyyən tədbirlər həyata keçirsə də, problem aradan qalxmır. Amma hər şeyi də dövlətdən gözləməyə dəyməz. Burada əsas məsuliyyət cəmiyyət olaraq bizim üstümüzə düşür. Biz uşaqların sağlam və təhlükəsiz böyüdülməsi, onların istismarına qarşı öz etiraz səsimizi ucaldırıqmı, onların normal həyata qayıtması üçün kömək edirikmi? Təəssüf ki yox!

***Uşaq bayramınız mübarək!***

***Lalə Mehralı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

1 iyun

## Meryem Uzerli neçə milyon qazanır?



Yaxın günlərdə ikinci uşağını qucağına alan Meryem Uzerli uzun müddətdir aktrisalıq etmədiyi üçün sosial media hesabında reklam işləri ilə məşğul olmağa başlayıb. SİA-nın türk mətbuatına istinadən verdiyi məlumata görə, uzun müddətdir xarici ölkədə yaşayan aktrisa işsizlikdən çətin vəziyyətə düşüb. Belə ki, o yaşadığı xarici ölkədə kafe açıb işlətsə də pandemiya səbəbindən uzun müddətdir işsiz qalıb. Kafedən istədiyi kimi gəlir əldə edə bilməyən aktrisa, sosial media hesabından etdiyi hər reklama görə, 259 min TL qazanıb. Qeyd edək ki, bu 25 min avro pul deməkdir. Xatırladaq ki, sevilən aktrisanın sosial media hesabında 6,7 milyon təqibçisi var.

***Gülər Səfərova***

## “”Formula 1” böyük televiziya auditoriyası olan idman növüdür”




“Beynəlxalq idman yarışları ölkənin dünyada tanıdılmasında, təbliğatında çox böyük rol oynayır”. Bu sözləri SİA-ya açıqlamasında Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov deyib. Onun sözlərinə görə, “Formula 1” böyük televiziya auditoriyası olan idman növüdür. “Dünyada bir çox ölkələrdə yayımlanır. Azərbaycan Respublikasının bu yarışı məhz zəfər qalibiyyətindən sonra keçirməsinin xüsusi önəmi var. Bu yarış idman sevərlərlə yanaşı eyni zamanda müxtəlif şirkətlərin ölkəyə marağını artırmış olur. Hansı ölkələrdə ki, “Formula1” yarışları keçirilir o ölkələrdə öz nümayəndəliklərinin açılması, o ölkəyə yatırımın qoyulması, o ölkənin təbliğatında maraqlı olduğunu göstərir”.

Raqif Abbasov həmçinin qeyd edib ki, “Formula1” yarışı ilk multikultur, kütləvi və izləyici auditoriyası olan yarış olmaqla yanaşı, eyni zamanda da ölkəyə sərmayənin cəlb olunmasının göstəricisi və Azərbaycana infrastruktur cəhətdən bu yarışın keçirilməsinə hazır olduğu bir ölkə kimi nümayiş etdirir”.

***Arzu Elsevərqızı***

## Süngü bıçağı ilə qətlə yetirən şəxs saxlanılıb



**Mayın 30-da Həsənov Sərdar Sabir oğlunun qəsdən öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. Baş Prokurorluğun Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, aparılan araşdırmalarla zərərçəkənin tanıdığı Dünyamalıyev Vüsal Şahin oğlunun şəxsi münasibətlər zəminində hərbi təyinatlı süngü bıçağı ilə çoxsaylı xəsarətlər yetirərək Sərdar Həsənovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.**

Faktla bağlı Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Vüsal Dünyamalıyev könüllü olaraq cinayət aləti olan süngü bıçağını təqdim edərək təslim olduqdan sonra şübhəli şəxs qismində istintaqa cəlb edilib. Qeyd edək ki, hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## Çində bir ailənin 3 uşaq sahibi olmasına icazə verilib



Çin hakimiyyəti bir ailənin 3 uşağa sahib olmasına icazə verən qərar qəbul edib. SİA-nın xəbərinə görə, bu barədə ölkənin rəsmi “Sinxua” agentliyi məlumat yayıb. Qərar Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun iclasının yekununa əsasən qəbul olunub. Qərarın qüvvəyə minəcəyi tarix açıqlanmayıb.

***Aysel Məmmədova***

## Mütəxəssisdən xəbərdarlıq: Bu qidalar zəhərlənməyə səbəb ola bilər

“Ümumiyyətlə, yay fəsli daha çox qida zəhərlənmələrinə məruz qaldığımız mövsümdür. Çünki, bir çox qidalar var ki, bunların yüksək tempraturda tərkibi dəyişir və tərkib dəyişdiyi üçün də qida zəhərlənməsinə səbəb olur”. Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib.

Onun sözlərinə görə, qida zəhərlənmələri əsasən mikrobların və onların toksinləri ilə yoluxmuş qida məhsulları yeyildikdə yaranır: “Adətən bu bir çox xəstələrdə 6 saata kimi özünü göstərirsə, digərlərində isə 2-3 gün çəkir”.

“Ümumiyyətlə, yüksək risk qrupuna bir çox qidalar daxildir. Bunlara daha çox bişmiş ət və toyuq məhsullarından hazırlanan salatları aid etmək olar. Ət sousları, piroqlar, paştetlər, süd və süd məhsulları, pendirlər, kremlər, bişmiş və çiy yumurtadan hazırlanan məhsullar, moyonez, evdə hazırlanan dondurmalar daxildir. Həmçinin, dəniz məhsulları da yüksək risk qrupuna aiddir. Balığı, krivetkanı, istridi və digər molyuskaları misal göstərmək olar. Bundan əlavə, bişmiş düyü, makaron, kartof və yaxud da tərəvəzlərlə bişmiş yeməklər var ki, onlar da risk qrupundadırlar. Bir çox hallarda həmin qidalar otaq tempraturunda saxlanıldığında tərkibindəki bakteriyalar çoxalır. Bakteriyaların çoxalması üçün də qidalı mühit yarandığından 10 dəqiqədə 2 dəfə çoxalmaqla artır”.

Mütəxəssis sözlərinə belə davam edib: “Bu kimi məhsulları hazırlayarkən, yaxşı olar ki, istehlak edəcəyimiz qədər bişirilsin və növbəti dəfə üçün saxlanılmasın. Ancaq bu halda əgər saxlanılacaqsa, o zaman mütləq şəkildə düzgün saxlanılmalıdır. Yaxşı olar ki, şüşə qab seçəsiniz. Eyni zamanda da, əgər soyuducuda saxlayırıqsa, mütləq ağzıbağlı qabda olmalıdır. Çünki, məhsulların saxlanılmasında “mal qonşuluğu” prinsipi çox önəmlidir ki, bir məhsulun digərinin yanında saxlanılması onun çirklənməsinə səbəb ola bilər”.

“Məhsulları aldıqdan dərhal sonra onları dərhal poletrin paketdən çıxarmalıyıq. Ümumiyyətlə, hər bir məhsulu öz xüsusiyyətinə görə saxlamaq lazımdır. Yay fəslində tempratur rejimi çox önəmlidir. Meyvə-tərəvəz məhsullarını bol su ilə yumaq çox vacibdir. Paketləmə məhsullarında da aldığımız yerə, saxlama şəraitinə və müddətinə diqqət etməliyik ki, həqiqətən paket zədələnməmiş olsun. Əgər paketin üzərindəki yazı pozulubsa və ya zədələnibsə deməli məhsul dəfələrlə dondurularaq əridilib. Meyvə-tərəvəz alarkən əsasən mövsümi olanları seçmək lazımdır. Həddindən artıq kimyəvi qatqı olan meyvə-tərəvəzlər zəhərlənmə yarada bilər”.

***Ayşən Vəli***

## Başsağlığı

Seyfəddin və Ələddin Eyvazovlar görkəmli ictimai-siyasi xadim, Əməkdar elm xadimi, professor

**Nizami Xudiyevin**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, qardaşı Azər Xudiyevə, oğlu Nazim Xudiyevə başsağlığı verir, Uca yaradandan səbr diləyirlər.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600